RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 127 (8443) ŞƏNBƏ, 4 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan dövlətinin turizm sektoruna verdiyi dəstək təqdir olunur

**Doğrusu, indiki çətin zamanda nikbin mövzudan - turizmdən danışmaq adamda istər-istəməz ani də olsa xoş əhval yaradır, COVID-19-un ən yaxın gələcəkdə həyatımızı tərk edəcəyinə inamı artırır.**

Yavaş-yavaş da olsa inanmağa başlayırıq ki, çox çəkməyəcək, yenə də məzuniyyətimizi harada və necə keçirməyimizi planlaşdıracağıq, istirahət və bayram günlərində "piknik" üçün seçəcəyimiz yeri götür-qoy edəcəyik, xarici qonaq qəbul edib, xaricə qonaq gedəcəyik.

Bəli, bu gün iqtisadiyyatın aparıcı və gəlirli sahələrindən olan turizm təkcə ölkə üzrə ÜDM-dəki çəkisinə görə yox, həm də əhalinin sosial durumuna qiymət vermək sarıdan əvəzsiz sektordur. Elə bu səbəbdən mütəxəssislər pandemiyanın ən çox ziyan vurduğu sahələrdən danışarkən ilk növbədə turizm sektorunu qeyd edirlər. Dünyanın 150-yə yaxın ölkəsinin sərhədlərini bağlaması adi statistika deyil. Bu, turizm sektorunun dünya üzrə 1,5 trilyon dollar itkiyə məruz qalması deməkdir. Əgər nəzərə alsaq ki, COVID-19 hələ meydan sulamaqda davam edir və ÜST pandemiyanın nə vaxt ləğv ediləcəyi tarixi açıqlamaqda çətinlik çəkir, həmin rəqəmin artacağı şübhəsizdir.

Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevlə BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) Baş katibi Zurab Polikaşvili arasında videokonfransın keçirilməsinin əhəmiyyəti böyükdür. Əvvəla, ÜTT-nin təşəbbüsü ilə keçirilən bu videokonfransdakı müzakirələrdən məlum oldu ki, dünya artıq pandemiyadan sonrakı dövrə hazırlaşır. Bu isə, qeyd etdiyimiz kimi, əhalinin COVID-19 sindromundan qurtulub normal həyata dönməsi üçün vacib amildir. İkincisi, videokonfransda Z.Polikaşvilinin pandemiyadan sonrakı dövrdə ÜTT-nin ölkəmizdə turizm sektorunun dirçəlməsi üçün tövsiyə və köməyini əsirgəməyəcəyini bildirməsi bir daha sübut etdi ki, Azərbaycan sürətlə dünyanın turizm mərkəzlərindən birinə çevrilir və dövlətin bu prosesdə iştirakı təqdirəlayiqdir.

Bunu təsdiqləyən digər fakt bir il əvvəl ÜTT İcraiyyə Şurasının iclasının Bakıda keçirilməsi və Z.Polikaşvilinin Ümumdünya Turizm Təşkilatının Baş katibi seçildikdən sonra ilk səfərlərindən birini Azərbaycana etməsidir. Prezident İlham Əliyev videokonfransda həmin hadisələrə belə qiymət vermişdir: "Görüşümüz yadımdadır. O zaman siz nisbətən yaxın vaxtda Ümumdünya Ticarət Təşkilatının Baş katibi kimi mühüm vəzifəyə seçilmişdiniz. Zənnimcə, sizin ilk səfərlərinizdən biri Azərbaycana olub. O vaxt biz görüşdük və birlikdə turizm sərgisinə getdik. Beləliklə, görüşlərimizi xatırlayıram və keçən il Bakıda ÜTT İcraiyyə Şurasının iclasında iştirak etdiyinizə görə də sizə təşəkkürümü bildirmək istərdim. Belə bir mühüm beynəlxalaq təşkilatın Şura iclasının Bakıda keçirilməsini biz Ümumdünya Turizm Təşkilatı tərəfindən dostluq və dəstək əlaməti kimi qiymətləndiririk".

ÜTT-nin Azərbaycana nümayiş etdirdiyi bu münasibətin isə əsaslı səbəbləri var. Və o səbəblərdən biri pandemiyadan əvvəl Azərbaycanın turizm sektorunun sürətlə inkişaf etdiyi ölkələr sırasında olmasıdır. Təkcə keçən il ölkəmizə 3 milyondan çox əcnəbi turist gəlmişdir ki, bu da əvvəlki ilə nisbətən 15 faiz artım deməkdir. Son 4-5 ili götürsək, bu artım 10-24 faiz civarında olmuşdur.

Azərbaycanın özəlliklərindən biri də odur ki, ölkəmizdə turizm həm dövlətin, həm də özəl sektorun sərmayələri hesabına inkişaf edir. O layihənin ki, icrasında dövlətin maddi dəstəyinə ehtiyac var, problem yoxdur - dövlət iş adamının yanındadır. O layihə ki, külli miqdarda investisiya tələb edir, yenə dövlət yaxasını kənara çəkmir - bütün vasitə və imkanları ilə sahibkarı tək qoymur.

Elə bu çətin günlərdə də dövlət bütün özəl sahələrdə işləyənlər kimi, pandemiyadan ən çox ziyan çəkən turizm sektorunda çalışanlara da hər cür kömək edir. Prezident İlham Əliyev videokonfransda bu barədə demişdir: "Pandemiya dövründə biz bu sahədə işləyən insanlara maddi dəstək göstərmişik, çünki onlar praktiki olaraq işsiz qalıblar. Sahə bərpa olunmağa başlayana qədər bu dəstək göstəriləcək".

Bəs, Prezidentin bu sözlərinin arxasında nə dayanır? Yenə də dövlət başçısından sitat: "Biz turizm sektorunun işçilərinin əməkhaqlarının çox hissəsini ödəmişik ki, onların dolanışıq üçün vəsaiti olsun və bu sahədə sahibkarlar kadr potensialını qoruyub saxlaya bilsinlər. Mənə təəssüflə məruzə edirlər ki, işçilərin sayı müəyyən qədər ixtisar edilir. Buna görə də mən hökumətə məlumat vermişəm ki, bu məsələyə baxılsın və turizm sektorunun dəstəklənməsi davam etdirilsin".

Amma bu da turizm sektorunda çalışanlar üçün pandemiya dövründə yeganə xilas yolu deyil. Sərhədlər bağlı olduğundan daxili turizmə tələbatın artmasını nəzərdə tuturuq. Düzdür, videokonfransda da qeyd olunduğu kimi, bu, bütünlükdə vəziyyətdən çıxmaq üçün çox azdır. Amma bütün hallarda heçdən çoxdur və indiki vəziyyətdə bundan istifadə edib sektoru müəyyən qədər ayaqda saxlamaq lazımdır. Xüsusən də dövlət başçısı buna dəstək verirsə: "...pandemiya dövründə biz daxili turizmə böyük diqqət yetiririk. Çünki daxili turizm xarici turizmi tam əvəz etməsə də, hər halda bütün turizm infrastrukturunun, o cümlədən regionlarda müəyyən dərəcədə doldura bilər.

Ardı 4-cü səh.

# Azərbaycan-ABŞ dostluq və tərəfdaşlıq münasibətləri daha da genişlənəcək



## Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident.

4 İyul - Müstəqillik Günü münasibətilə Sizi və dost Amerika xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

30 ilə yaxındır ki, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında uğurlu əməkdaşlıq münasibətləri mövcuddur. Bu illər ərzində ABŞ şirkətləri ölkəmizdə enerji sektorunun, informasiya-kommunikasiya texnologiyalarının və digər vacib sahələrin inkişafında mühüm rol oynayıblar.

Eyni zamanda, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi və terrorizmlə mübarizə sahəsində də ölkələrimiz nümunəvi əməkdaşlıq əlaqələri qurublar. Əminəm ki, Azərbaycan-ABŞ dostluq və tərəfdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra daha da genişlənəcəkdir.

Ümid edirik ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Amerika Birləşmiş Ştatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktının prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində tezliklə ədalətli həlli istiqamətində səylərini daha da artıracaqdır.

Dünyanın COVID-19 pandemiyası ilə üzləşdiyi bu çətin zamanda Azərbaycan xalqının Amerika xalqı ilə həmrəy olduğunu bir daha qeyd etmək istəyirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Amerika Birləşmiş Ştatlarına daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2020-ci il*

# Müasir dünyamıza daha bir tarixi töhfə

Qoşulmama Hərəkatının mayın 4-də keçirilmiş Zirvə videogörüşündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin pandemiyanın qlobal həlli ilə bağlı irəli sürdüyü təşəbbüsü dünyanın siyasi xadimləri və ekspertləri yüksək qiymətləndirir, onun əhəmiyyətinin müxtəlif məqamlarını diqqətə çatdırırlar.

Bu təşəbbüs, həqiqətən də, bir çox məqam baxımından maraqlı və diqqətçəkəndir. Bu məqamlardan bir neçəsi barədə oxucularla fikirlərimi bölüşmək istəyirəm. Həmin görüş siyasi lider kimi İlham Əliyevin xarakterini, məqsədlərini və potensialını bir daha nümayiş etdirdi.

Cənab İlham Əliyev görüşdə irəli sürdüyü təşəbbüslə sübut etdi ki, onun rəhbərlik, idarəçilik imkanları bir ölkənin, bir beynəlxalq qurumun hüdudlarına sığmır. Azərbaycan Prezidenti dünyada gedən prosesləri, bu proseslərin nəticələrini və tənzimlənməsi yollarını əvvəlcədən görə bilmək, qiymətləndirmək istedadına malikdir. Təbii ki, bunun üçün fenomen təfəkkür sahibi olmaq mütləqdir.

Cənab İlham Əliyev ötən il oktyabrın 25-də Qoşulmama Hərəkatına sədr seçiləndə proqram xarakterli çıxış etmişdi.

Çıxışında sədr kimi fəaliyyətinin istiqamətlərini açıqlayarkən demişdir ki, digər təsisatlarla dialoqun qurulmasına, inkişafına, əməkdaşlığın coğrafiyasının genişləndirilməsinə səy göstərəcək. Bu o deməkdir ki, respublikamızın Prezidenti dövlətləri, xalqları bəşəriyyətin xoş gələcəyi naminə vaxtaşırı ortaya çıxan çətinlikləri aradan qaldırmaq üçün qüvvələri birləşdirməyə, bir-birinə dayaq olmağa çağırır. Bu çağırış dövlət başçısının xeyirxahlığından, humanizmindən irəli gəlir. Bu humanizm xüsusilə böyük güclərin hegemonluq naminə planetimizin müxtəlif bölgələrində üzüzə durduğu, güc nümayiş etdirdiyi indiki məqamda xüsusilə vacibdir.

İlham Əliyevin pandemiyanın qlobal həlli ilə bağlı təklifinə yalnız Ermənistan Respublikasının baş naziri Paşinyan xüsusi canfəşanlıqla qarşı çıxdı. O, təklifi dəstəkləyənlərdən fərqli olaraq əks mövqe tutdu. Əlbəttə, onun mövqeyi təklifin qəbul olunmasına zərrə qədər də təsir göstərmədi.

Ardı 4-cü səh.



# Regionun nəqliyyat qovşağı və logistika mərkəzi

**İlham ƏLİYEV:** "Azərbaycan etibarlı tranzit ölkəsi kimi dünya arenasında özünü təsdiqləyib"

Azərbaycanın bölgənin lider ölkəsi olmasını şərtləndirən mühüm amillərdən biri beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında yaxından iştirakıdır. Tranzit imkanlarının müasir dövrdə ölkənin iqtisadiyyatında, regional və beynəlxalq mövqeyində rolunu ilk gündən düzgün qiymətləndirən Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq qlobal nəqliyyat dəhlizləri məhz ölkəmizdən keçir.

## Bütün yollar Azərbaycanda birləşir

Son illər dünyanın hər yerində beynəlxalq yükdaşımaları sahəsində rəqabət daha da yüksəlib. Bu da onu göstərir ki, ölkələr arasında əlaqələrin məzmunu keyfiyyət dəyişikliklərinə məruz qalsa da, ticari və iqtisadi dəhlizlərin əhəmiyyəti öz aktuallığını qoruyub saxlayır. Belə şəraitdə böyük tranzit potensialına malik Azərbaycan müşahidəçi mövqeyində dayana bilməz.

Ardı 4-cü səh.

# Keçmiş hərbi xunta Paşinyanı devirməyə hazırlaşır

## Baş nazir fövqəladə vəziyyət rejimindən rəqiblərinə qarşı dəyənək kimi istifadə edir

**Ermənistanda şiddətlənən koronavirus pandemiyası baş nazir Nikol Paşinyan iqtidarı üçün getdikcə daha böyük təhdidə çevrilir. Ona qarşı olan qüvvələr pandemiya ilə mübarizədən istifadə edib Paşinyana qarşı daha fəal iş aparırlar.**

"Çiçəklənən Ermənistan" partiyasının deputatı Naira Zöhrabyan bu xüsusda bildirir ki, Ermənistan koronavirus daşıyıcılarının sayına görə dünya "çempion"larındandır: "Koronavirusdan 600-ü ötən ölüm səhiyyə nazirinin qürurlu olmasına mane olmur".

"Ədalətli Ermənistan" təşəbbüs qrupunun üzvü, vəkil Norayr Norikyan isə qeyd edir ki, Ermənistanda həm hakimiyyət, həm də cəmiyyət dəhşətli koronavirusun olması ilə barışıb. Norikyan qeyd edib ki, koronavirus Ermənistana qalib gəlib: "Görülmüş və görülən tədbirlər artıq imitasiya xarakteri daşıyır, təəssüf ki, hakimiyyət bu fəlakəti aradan qaldırmaq üçün hər hansı strateji fikir və proqrama malik deyil".

Bu hal Ermənistan daxilində ictimai-siyasi müstəvidə gərginliyin artmasına rəvac verməklə yanaşı, həm də hakimiyyət uğrunda yeni bir savaşın başlanmaqda olduğunu göstərir. Real vəziyyətin təhlili bu qənaətə gəlməyə əsas verir ki, keçmiş hərbi xunta baş nazir Nikol Paşinyanı devirmək üçün hərəkətə keçməyə hazırlaşır və bu məsələdə o, həm Qarabağdakı separatçı rejimdən, həm də müəyyən xarici qüvvələrdən, xüsusən də Rusiyadakı erməni lobbisindən istifadə etməyə çalışır. Bu fonda işğalçı ölkənin ikinci prezidenti Robert Koçaryanın həbsdən girov müqabilində azad edilməsindən heç iki gün keçməmiş cinayətkar keçmiş hərbi xuntanın digər nümayəndəsi Serj Sarkisyanın bütün köhnə çəkişmələri unudaraq onun görüşünə tələsməsi də təsadüf sayılmır.

Ölkədə hakimiyyətin koronavirus pandemiyası üzündən qarşılaşdığı böyük çətinliklər, faciəvi siyasi-iqtisadi vəziyyət fonunda Koçaryan-Sarkisyan koalisiyası məqsədinə çatmağın daha da asan olduğunu düşünür.

Ardı 4-cü səh.

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 62-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 885-1-ci maddə əlavə edilsin:

**“Maddə 885-1. Aqrar sığorta sistemi**

Aqrar sığorta sistemi ilə əhatə olunan münasibətlər bu Məcəllə, “Sığorta fəaliyyəti haqqında” və “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.”;

1.2. 915-ci maddədə “maddəsində” sözü “və 16.6-cı maddələrində” sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 916.1-1-ci maddə əlavə edilsin:

“916.1-1. Bu Məcəllənin 916.1-ci maddəsində nəzərdə tutulmuş məsələlərdən əlavə olaraq aqrar sığortaya aid sığorta qaydalarında “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər məsələlər də müəyyən edilir.”;

1.4. 937.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Aqrar sığorta müqaviləsi “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vasitəçi aqrar sığortaçıların xidmətindən istifadə etməklə bağlanır.”.

**Maddə 2.** “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12 (I kitab), maddə 2221; 2018, № 7 (I kitab), maddə 1392; 2019, № 1, maddələr 19, 33, 50, № 5, maddələr 793, 815; № 6, maddə 999, № 8, maddə 1362) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1.12-ci maddədə “və ya” sözləri vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə “orqanı tərəfindən” sözlərindən sonra “və ya bu Qanunun 16.6-cı maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 2.5-ci maddə əlavə edilsin:

“2.5. Aqrar sığorta sistemi ilə əhatə olunan münasibətlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu Qanun və “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.”;

2.3. Aşağıdakı məzmunda 14.3.2.6-4-cü maddə əlavə edilsin:

“14.3.2.6-4. “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hadisələr nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan aqrar sığorta;

2.4. 14.3.2.7-ci maddədə “14.3.2.6-3-cü” sözləri “14.3.2.6-4-cü” sözləri ilə əvəz edilsin;

2.5. 16.5-ci maddədə “Maliyyə” sözü “Bu Qanunun 16.6-cı maddəsinin tələbi nəzərə alınmaqla, maliyyə” sözləri ilə əvəz edilsin;

2.6. aşağıdakı məzmunda 16.6-cı maddə əlavə edilsin:

“16.6. “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sığorta qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 6-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adında “Vergilər” sözü “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikası İqtisadiyyat” sözləri ilə əvəz edilsin;

2. 6.0-cı bəndə “Məcəllənin” sözündən sonra “211 (sahibkarlıq fəaliyyəti subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə),” sözləri əlavə edilsin və həmin bənddə “vergilər naziri, onun müavinləri, Nazirliyin Aparatının rəhbəri, onun müavinləri, Vergilər Nazirliyi yanında departamentlərin baş direktorları, onların müavinləri, ərazi vergilər departamentlərinin (idarələrinin) baş direktorları (direktorları), onların müavinləri, rayon vergilər şöbələrinin direktorları, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının vergilər naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin” sözləri “Dövlət Vergi Xidmətinin rəisi, onun müavinləri, Dövlət Vergi Xidməti Aparatının rəhbəri, onun müavinləri, Dövlət Vergi Xidməti Aparatının struktur bölmələrinin və strukturuna daxil olan qurumların rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin şəhər (rayon) vergilər idarələrinin rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2020-ci il*

## “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli, 22 may tarixli 1039 nömrəli, 2 iyun tarixli 1049 nömrəli, 18 iyun tarixli 1068 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1-ci bənddən “211,” rəqəmləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 5.6-2-ci bənd əlavə edilsin:

“5.6-2. həmin Məcəllənin 211-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, sahibkarlıq fəaliyyəti subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə isə həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2020-ci il*

## “Avropa İttifaqı Komissiyasının Yardım Proqramları üzrə Azərbaycan Respublikasının Milli Koordinatoru haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 940 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Avropa İttifaqı Komissiyasının Yardım Proqramları üzrə Azərbaycan Respublikasının Milli Koordinatoru haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 940 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 347; 2005, № 10, maddə 968; 2007, № 9, maddə 882; 2009, № 2, maddə 74; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 1-ci hissəsindən “Şahin Abdulla oğlu Mustafayev” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 30 avqust tarixli 188 nömrəli, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 5 avqust tarixli 1569 nömrəli və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” 2018-ci il 18 iyul tarixli 213 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Həmkarlar ittifaqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Gənclər siyasəti haqqında”, “Əmək pensiyaları haqqında”, “Təhsil haqqında”, “Daşınar əmlakın yüklülüyü haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498; 2001, № 7, maddə 459; 2002, № 8, maddə 487; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459, № 6, maddə 611; 2008, № 3, maddə 170; 2017, № 5, maddə 767; 2018, № 8, maddə 1691) 2.4-cü bəndində (ikinci halda) “və yeddinci hissələrində” sözləri “hissəsində” sözü ilə əvəz edilsin.

2. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1516; 2018, № 12 (I kitab), maddə 2579; 2019, № 6, maddə 1038, № 7, maddə 1217, № 12, maddə 1922; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1036 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “16-cı,” sözlərindən sonra “19.0.2.6-cı (hər iki halda),” sözləri əlavə edilsin;

2.2. 2.2-ci bənddən “, 19.0.2.6-cı” sözləri çıxarılsın;

2.3. 2.6-cı bəndə “Qanunun” sözündən sonra “19.0.2.6-cı maddəsində (birinci halda) və” sözləri əlavə edilsin;

2.4. aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

“2.7-1. həmin Qanunun 19.0.2.6-cı maddəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”.

3. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499, № 11, maddə 2239; 2019, № 7, maddə 1217) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “28.3-cü maddəsində” sözləri “20.3-cü və 28.3-cü maddələrində” sözləri ilə əvəz edilsin;

3.2. 2.4-cü bənddən “20.3-cü (hər iki halda),” sözləri çıxarılsın;

3.3. 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

“2.12. həmin Qanunun 20.3-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2020-ci il*

## *Şahmar MÖVSÜMOV:* “Koronavirusla mübarizədə qalib gəlmək üçün hamımız səfərbər olmalıyıq”

**Koronavirus ümumxalq problemidir və bu problemlə mübarizədə hamımız səfərbər olmalıyıq.**

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov Operativ Qərargahın iyulun 3-də keçirilən brifinqində bildirib.



Prezidentin köməkçisi qeyd edib ki, koronavirus qlobal problemdir. Əvvəllər hansısa hadisə baş verəndə dünya təcrübəsinə də müraciət edilirdi. Lakin indi elə vəziyyət yaranıb ki, bununla bağlı dünya təcrübəsi yoxdur. Bu gün yoluxma sayı yüksək həddə qalır. Biz bütün dünyanın üzləşdiyi problemlə qarşı-qarşıyayıq. Bu problemlə mübarizədə hamımız iştirak etməklə virusa qalib gələ bilərik. Bu isə çətin deyil, sadə yollarla - sosial məsafə saxlamaq, tibbi maskadan istifadə etmək və gigiyenik qaydalara əməl etməklə koronavirusa qalib gələ bilərik.

Şahmar Mövsümov deyib ki, Azərbaycanda yayılmağa başladığı ilk gündən etibarən koronavirusun qarşısının alınması üçün lazımi addımlar atıldı və göstərişlər verildi. İqtisadi sahədə dövlət başçısının fərmanına uyğun olaraq 4 işçi qrup yaradıldı, tədbirlər planı hazırlandı. Bu tədbirlər planı makroiqtisadi sahənin, həm də sosial sahənin inkişafına, dayanıqlılığına yönəlib.

## Azərbaycanda daha 583 nəfər koronavirusa yoluxub, 395 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 583 yoluxma faktı qeydə alınıb, 395 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 19 min 267 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 10 min 820 nəfər müalicə olunaraq sağalıb, 235 nəfər vəfat edib. Aktiv xəstə sayı 8212 nəfərdir.

Ötən müddət ərzində 502 min 965 test aparılıb. Bugünkü test sayı isə 7137-dir.

## İyulun 5-dən etibarən vətəndaşlar istifadə edəcəkləri nəqliyyat vasitəsinin də seriya nömrəsini SMS-lə 8103-ə göndərməlidirlər

“icaze.e-gov.az portalı vasitəsilə hər bir əməkdaşa icazə verildikdə onun istifadə etdiyi nəqliyyat vasitəsinə dair məlumat da daxil edilir. 8103 SMS icazə sistemində isə vətəndaşlar şəxsiyyət vəsiqələrinin seriya və nömrəsini yazmaqla icazə alırlar. İyulun 5-dən etibarən vətəndaşlar özləri üçün icazə alarkən istifadə edəcəkləri nəqliyyat vasitəsinin seriya nömrəsini də eyni SMS-lə 8103 qısa nömrəsinə göndərməlidirlər.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Nazirlər Kabineti yanında Operativ Qərargahın iyulun 3-də keçirilən brifinqində söyləyib.

Agentliyin sədri bildirib ki, bununla bağlı videotəlimat hazırlanacaq və vətəndaşlar məlumatlandırılacaqlar.

## Xüsusi karantin rejimi dövründə icazələrin alınması sistemində bir sıra yeniliklər edilib

Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemində bir sıra yeniliklər tətbiq edilib. Belə ki, 8103 SMS icazə sistemi üzərindən müvafiq kodlar üzrə icazə alarkən cavab mesajında şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi də əks olunur. Bu, eyni nömrədən müxtəlif vəsiqə üzrə icazə alan vətəndaşlar arasında çaşqınlıq hallarının yaranmaması, hansı vəsiqə üzrə icazənin verildiyinin dəqiq müəyyən edilməsi məqsədini daşıyır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Nazirlər Kabineti yanında Operativ Qərargahın iyulun 3-də keçirilən brifinqində bildirib.

Ülvi Mehdiyev qeyd edib ki, “icaze.e-gov.az portalında isə iyulun 5-dək olan icazələr avtomatik deaktiv ediləcək. Fəaliyyətinə Nazirlər Kabinetinin müvafiq qərarı ilə icazə verilən sahələr üzrə çalışan əməkdaşların isə iyulun 20-dək icazələrini işəgötürənlər özləri nəzərdə tutduqları qrafikə uyğun bu gündən aktivləşdirə biləcəklər.

Bundan başqa, fəaliyyətinə icazə verilmiş sahələrdə çalışan əməkdaşların ezamiyyələrinin icazə.e-gov.az portalına əlavə olunması imkanı yaradılıb. Bunun üçün qurumun möhür səlahiyyətli şəxsi icazə.e-gov.az portalında “İcazələr” bölməsinə daxil olur. Açılmış bölmədə “Əməliyyatlar” sütunundan “ezamiyyə et” düyməsinə klik edilərək müvafiq məlumatlar doldurulur və təsdiqlənir. Əgər əməkdaşın aktiv icazəsi yoxdursa, bu zaman “İcazələr” bölməsinə daxil olub “Yeni” düyməsinə klik edərək öncə əməkdaşa icazə almaq lazımdır”, - deyə agentliyin sədri bildirib.

**Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Respublikamızın bütün guşələrindən həmvətənlərimiz dövlət başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir qismini təqdim edir.**



# «Cənab Prezident, hər bir vətəndaşımızı düşünərək qəbul etdiyiniz bütün qərarları dəstəkləyirik»

Ağcabədi rayonundan müəllim **Vüsalə Əliyeva** yazır: "Hörmətli cənab Prezident, biz Azərbaycan gəncləri, Azərbaycan müəllimləri Sizinlə qürur duyuruq. Bütün dünya ölkələri pandemiya ilə mübarizədə ciddi itkilərlə və çətinliklərlə üz-üzə olarkən, insanlar arasında çaşqınlıq yaranarkən, Sizin müdrik siyasətiniz, peşəkar və çevik göstərişləriniz ölkəmizin virusla bağlı statistikasını ən son yerlərdə qərarlaşdırmışdır. Bu ağır şəraitdə insanlarımıza verdiyiniz dəyər, səhiyyə sistemimizi günün tələblərinə uyğun qurmağınız və əhalinin sosial rifah halının qorunması istiqamətində atılan addımlar nəticəsində xalqımız rahat yaşayır, xəstəliklə mübarizəni qaydalara və tələblərə uyğun şəkildə aparır. Möhtərəm cənab Prezident, Sizə bu karantin dövründə təhsilimizin davamlı şəkildə fəaliyyət göstərməsinə, müəllimlərə və təhsilimizə verdiyiniz hərtərəfli dəstəyə görə dərin minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin rəhbərliyinizlə xalqımız və dövlətimiz bu sınaqdan üzüağ çıxacaq və postpandemiya dövrünə yeni uğurlu addımlarla qədəm qoyacaq".

Biləsuvar rayon Veteranlar Təşkilatının sədri **Məhərrəm Kazımlı:** "Hörmətli cənab Prezident, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında sərəncamınıza əsasən polkovnik Nizami Ağoğlan oğlu Məmmədova "general-mayor" hərbi rütbəsi verməyiniz bütün Biləsuvar əhalisinə göstərdiyiniz böyük etimaddır. Müstəqil Azərbaycanın ilk günlərindən bugünə kimi biləsuvarlılar respublikanın inkişafında, ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətlər göstərmişlər. Belə ki, Qarabağ döyüşlərində yüzlərlə biləsuvarlı könüllü olaraq vətənin müdafiəsinə qalxaraq 109 şəhid vermiş, 22 nəfər döyüşlərdə itkin düşmüşdür. Aprel döyüşlərində ordumuzun göstərdiyi o böyük şücaətdə biləsuvarlılar mətinliklə döyüşərək vətənə və dövlətə olan sədaqətlərini bir daha göstərmişlər. Bu döyüşlərdə 3 nəfər şəhid olmuş, 17 nəfər isə yaralanmışdır. Hörmətli cənab Prezident, vətənin müdafiəsində iştirak edən oğullara verdiyiniz qiymətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, biz biləsuvarlılar vətənin, dövlətin, dövlətçiliyin və şəxsən Sizin yanınızdayıq. Lazım olsa, vətən yolunda canımızdan keçməyə hazırıq. Biz Prezidentimizlə, ordumuzla fəxr edirik. Yaşasın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev! Yaşasın müstəqil Azərbaycan Ordusu!"

Ağdam rayonundan məcburi köçkün **Raqub Cəfərov:** "Möhtərəm cənab Prezident, yeni növ koronavirus infeksiyasından zərər çəkmiş və bu xəstəliyə yoluxmuş insanlara Sizin rəhbərliyinizlə görülmüş tədbirlər hesabına dövlət dəstəyi göstərilməkdədir. Belə bir zamanda sosial və infrastruktur layihələrinin uğurla icra edilməsi dövlətimizin gücünü və maliyyə dayaqlarının möhkəm olduğunu göstərir. Torpaqlarımızın işğalı nəticəsində doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlər də Sizin diqqətinizdən kənarda qalmır. Onlar üçün yeni qəsəbə və yaşayış kompleksləri salınır, mənzil-məişət şəraitləri və sosial vəziyyətləri yaxşılaşdırılır. Cənab Ali Baş Komandan, ona görə də biz məcburi köçkünlər Sizi dəstəkləyirik, Sizə minnətdarlığımızı və təşəkkürümüzü bildiririk".

Bakının Suraxanı rayonundan **Orxan Əlizadə:** "Hörmətli cənab Prezident, bu mürəkkəb şəraitdə atdığınız düzgün addımlar nəticəsində ölkəmiz qlobal pandemiya vəziyyətində minimum itkilərlə mübarizə aparır. Dünyanı cənginə alan koronavirusun yayılmasının qarşısının alınması üçün görülən tədbirlərə, bu çətin günlərdə də xalqın yanında olduğunuza və xalqa qayğı göstərdiyinizə görə şəxsən öz adımdan və ailəmin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Koronavirus pandemiyası dövründə bütün rayonlarda olduğu kimi, Suraxanı rayonunda yaşayan aztəminatlı ailələrə ərzaq yardımları, işsiz vətəndaşlara 190 manat birdəfəlik müavinət verilməsi sakinlərimizi sevindirdi. Cənab Prezident, Sizin "Biz birlikdə güclüyük!" çağırışınız uzun illər ölkəmizin zəfər simfoniyası olacaqdır. Allah Sizi, ailənizi və xalqımızı qorusun!"

Ağcabədi rayonunun Taynaq kəndindən **Fatma Quliyeva:** "Möhtərəm cənab Prezident, dünya birliyi bizə qarşı hələ də ədalətsiz mövqe nümayiş etdirərək Ermənistanın işğalçılıq siyasətinə birmənalı olaraq göz yumur. Buna baxmayaraq, Siz bu məsələdə daim qətiyyətlə Azərbaycanın barışmaz mövqeyini ifadə edirsiniz. Sizin iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının videokonfrans tipli sammitindəki çıxışınız bunu bir daha sübut edir. Siz Ermənistanın baş naziri Nikol Paşinyana özlərinin terrorçunu xalq qəhrəmanına çevirdiklərini bildirdiniz. Bu, ən düzgün və yerində verilmiş cavab idi. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz var. Ermənistanın hökumət başçısı susdu, çünki bu, həqiqət idi. Biz daim Sizin siyasətinizi dəstəkləyirik və istər sülh yolu ilə olsun, istərsə də hərbi yolla, tezliklə Qarabağ məsələsinin bizim xeyrimizə həll olunacağına inanırıq".

Zaqatala rayonundan **Mehnurə İsmayılova:** Möhtərəm cənab Prezident, Sizə ailəmin adından və öz adımdan sonsuz minnətdarlığımı bildirmək istəyirəm. Siz hər zaman xalqın yanında olmusunuz. Bu gün də dünyanı cənginə alan pandemiyaya qarşı mübarizədə bizlərə göstərdiyiniz sevgi, diqqət, qayğıkeşliyiniz dünyada əvəzolunmaz, hər zaman xalqının yanında olan Prezident olduğunuzu göstərdi. Cənab Prezident, Sizə cansağlığı arzulayıram. Arzum budur ki, kölgəniz heç zaman başımızın üstündən əskik olmasın. Azərbaycan Sizinlə fəxr edir və ölkəmiz Sizinlə gözəldir".

Gəncə şəhərindən professor **Azad Bayramov:** "Möhtərəm cənab Prezident, Sizin ölkədə apardığınız islahatlar hər bir Azərbaycan vətəndaşı kimi məni də fərəhləndirir. Xüsusilə onu qeyd etmək istəyirəm ki, Azərbaycan Dövlət Aqrar Universitetinə göstərdiyiniz diqqət və qayğı bizi daha da ruhlandırır. Sizin son dörd ildə üçüncü dəfə Azərbaycan Dövlət Aqrar Universitetində olmağınız aqrar sahəyə, eyni zamanda, universitetimizə göstərdiyiniz qayğının bariz nümunəsidir. İyunun 24-də Gəncə şəhərinə səfəriniz çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tipli tədris korpusunun açılış mərasimində Sizin və Birinci vitse-prezident Mehriban xanımın iştirakı aqrar sahəyə böyük bir töhfədir. Müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalar nəinki aqrar sahənin inkişafına vəsilə olacaq, kadrların yetişdirilməsinə kömək edəcək, eyni zamanda, xeyli sayda insanın işlə təmin olunmasına şərait yaradacaqdır. Bütün bunlar üçün Sizə dərin minnətdarlıq edirəm. Var olsun müstəqil Azərbaycan, var olsun əziz Prezidentimiz!"

Goranboy rayonunun Muzdurlar kəndindən **İlahə Paşayeva:** "Möhtərəm cənab Prezident, dünyanı bürüyən bu pandemiyanın ölkəmizdə sürətlə yayılmasının qarşısının alınmasında Sizin çox böyük fədakarlığınızı görürük. Siz təkcə pandemiyanın qarşısının alınması zamanı yox, hər vaxt xalqımızın yanındasınız. Ölkəmizin gündən-günə inkişaf etməsi, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşaması, dövlətimizin dünya dövlətləri içərisində nüfuzlu yer tutması Sizin rəhbərliyinizlə aparılan işlərin əyani sübutudur. Biz də öz işimizlə Sizin etimadınızı dogruldacağımıza, layiqli vətəndaş olmagımıza söz veririk. Hörmətli cənab Prezident, xalqımız, eləcə də biz şagirdlər üçün yaratdığınız bu gözəl şəraitə görə Sizə minnətdarlığımızı bildiririk".

Zaqatala rayonundan **Namidə Süleymanova, Aybəniz Kələşova** və **Xanım İsayeva** yazırlar: "Möhtərəm cənab Prezident, məlum pandemiyanın bütün dünyanı sarsıtdığı vaxtda Sizin qabaqlayıcı tədbirləriniz nəticəsində ölkəmizdə vəziyyət nəzarət altında saxlanıldı. Sizin uzaqgörən siyasətiniz, ən çətin məqamlarda qəbul etdiyiniz düzgün qərarlar ölkəmizi və xalqımızı pandemiyanın ən ağır nəticələrindən xilas etdi. Vətəndaşların sağlamlığını düşünərək zəruri addımların atılması, insanların sosial rifahının təmin olunması istiqamətində gördüyünüz bütün işlərə görə Sizə təşəkkürümüzü bildirir, çətin və şərəfli işinizdə yeni uğurlar arzulayırıq. İnanırıq ki, xalqımız, eləcə də bütün bəşəriyyət bu bəladan tezliklə xilas olacaq".

Biləsuvar rayonundan **Nurəngiz Bədəlova:** "Hörmətli cənab Prezident, ilk növbədə, Sizə möhkəm cansağlığı, yeni uğurlar diləyirəm. Doğma Vətənim Azərbaycana isə sülh, əmin-amanlıq və daim çiçəklənmək arzu edirəm. Möhtərəm cənab Prezident, son illər Biləsuvar rayonunda əkin sahələrinin su təminatı ilə bağlı çətinliklər əhalini narahat edirdi. Bu yerlərdə təsərrüfat işlərində su böyük əhəmiyyət kəsb edir. Yaranmış vəziyyətlə bağlı əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında imzaladığınız sərəncam bir biləsuvarlı kimi məni çox sevindirdi. Sizə dərin təşəkkürümü bildirirəm. Ömrünüz uzun olsun!"

Zaqatala rayonunun Əliabad qəsəbəsindən **Elçin Zamanov:** "Çox hörmətli cənab Prezident, əvvəlcə Azərbaycan xalqının mənafeyi naminə gördüyünüz bütün işlər üçün Sizə ürəkdən gələn minnətdarlığımı bildirirəm. Bütün dünya ölkələrini cənginə almış koronavirus pandemiyasının Azərbaycanda təzahürləri hələ görülməmişdən əvvəl ölkəmizdə gerçəkləşdirdiyiniz təxirəsalınmaz tədbirlər sayəsində xalqımız bu pandemiyanın ciddi təsirlərindən qoruna bildi. Məhz Sizin həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər sayəsində ölkəmizdə bu virusa yoluxanların sayı dünya ölkələri ilə müqayisədə azlıq təşkil etməkdədir. Bu pandemiya günlərində Siz əməlinizlə xalqımızın yanında olduğunuzu bir daha göstərdiniz. Bütün bu işlərinizə görə Sizə şəxsən öz adımdan, ailəmin və kəndimizin sakinləri adından dərin təşəkkürümü bildirir və uzun ömür, cansağlığı arzulayıram".

Bakı şəhərindən müəllim **Səriyyə Ziyadova-Eyvazova:** "Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan özünün intibah dövrünü yaşayır. Son illər ərzində görülən genişmiqyaslı işlər, min bir əziyyət hesabına ərsəyə gələn sosial və infrastruktur obyektləri bunu deməyə əsas verir. Respublikamızda abad yollar çəkilib, gözəl şəhərlər yaradılıb, müasir məktəblər və xəstəxanalar tikilib xalqın istifadəsinə verilmişdir. "ASAN xidmət" də Sizin uğurlarınızdan biridir. Gənc nəslin nümayəndələrinə geniş imkanlar açmağınız, onları dövlət idarəçiliyində irəli çəkməyiniz təqdirəlayiqdir. Pandemiya dövründə uşaqlar və gənclər təhsildən geri qalmadılar. Virtual dərslərin təşkil olunması buna şərait yaratmışdır. Şagirdlər və tələbələr bu imkandan lazımınca faydalanmağa çalışırlar. Əziz Prezidentimiz, Sizə bu çətin və şərəfli yolda həndəsi silsilə şəklində böyük uğurlar arzulayıram".

Saatlı rayonu Dəllər kəndinin sakinləri adından **Əlimuxtar Muxtarov:** "Hörmətli cənab Prezident, Azərbaycan Respublikasının vətəndaşı olaraq pandemiya dövründə Sizin mərkəzində ölkə vətəndaşının sağlamlığı dayanan fəaliyyətinizə görə həm öz adımdan, həm də Saatlı rayonunun Dəllər kəndinin sakinləri adından sonsuz minnətdarlığımı bildirməyi özümə borc bilirəm. Cənab Ali Baş Komandan, Sizin müvafiq tapşırığınızla aztəminatlı ailələrə təyin edilən birdəfəlik yardım bizim kəndimizdə də bir çox ailənin güzəranının yaxşılaşmasına səbəb olmuşdur. Bu məqamda bir ailənin Sizə olan alqışını, duyğusunu nəzərinizə çatdırmaq istəyirəm. Ailə deyir: "Allah Prezident İlham Əliyevin atası Heydər babaya rəhmət eləsin, Özünə isə uzun və sağlam ömür versin". Bəli, hörmətli Prezidentimiz, biz Sizin Ulu Öndərin yolu ilə həyata keçirdiyiniz daxili və xarici siyasəti bəyənir, dəstəkləyir, eyni zamanda, hər an Sizin yanınızda olduğumuzu ifadə etmək istəyirik. Tanrı Sizi, ailənizi və bütün Azərbaycan xalqını gözəgörünməz bəla və müsibətlərdən hifz etsin!"

# Güzəştli kredit almaq imkanları genişləndirilir

**Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2020-ci il tarixli fərmanı ilə Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası təsdiq olunub və fondun nizamnaməsində dəyişikliklər edilib.**




Yeni qaydalara əsasən, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun sahibkarlığın güzəştli kreditləşdirilməsinin yeni mexanizmləri də tətbiq olunur. Bu mexanizmlərdən biri daşınmaz əmlak girovu olmayan sahibkarların güzəştli kreditlərə çıxış imkanlarının yaradılması məqsədilə avadanlıqların alınması üçün güzəştli kreditlərin verilməsidir. Mexanizmin mahiyyəti ondan ibarətdir ki, güzəştli kredit yeni avadanlıqların alınmasına yönəldilir və həmin avadanlıqlar da girov kimi qəbul edilir. Bu mexanizm üzrə bankların faiz dərəcəsi 7 faiz təşkil edir. Tətbiq olunan yeni mexanizm biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da genişlənməsinə, investisiya fəallığının, iqtisadi artımın və məşğulluğun dəstəklənməsinə əhəmiyyətli töhfə verəcəkdir.










Bundan başqa, kənd təsərrüfatı üzrə uzunmüddətli investisiya tələb edən sahələrdə (çayçılıq, bağçılıq və s.) kiçik həcmli kreditlər üzrə kredit müddəti 3 ildən 5 ilə, orta həcmli kreditlər üzrə 5 ildən 7 ilədək artırılıb və kredit dövrünün yarısı güzəşt müddəti olaraq təsbit edilib. Mexanizmin tətbiqində əsas məqsəd kredit risklərinin azaldılması, kiçik və orta sahibkarların güzəştli kreditlərə çıxış imkanlarının artırılmasıdır.

Təsdiq edilmiş digər mexanizm fors-major hadisə (təbii fəlakətlər, epidemiyalar və s.) ilə bağlı şəraitin dəyişməsi səbəbindən Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasının müəyyən etdiyi qaydada kredit təşkilatlarının fond qarşısındakı borc öhdəliyinin zəruri hallarda restrukturizasiya olunması, kredit öhdəliyinin icrasına möhlət verilməsidir.

Fərmanla Sahibkarlığın İnkişafı Fondunun nizamnaməsində əlavə və dəyişikliklər edilərək, fəaliyyət istiqamətlərinə zəmanət və subsidiya verilməsi mexanizmləri də əlavə olunub.

Bununla yanaşı, sahibkarlara verilən yeni kreditlər üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən maliyyələşdirilməsi mexanizmlərinin tətbiqinə başlanılıb. Belə ki, qeyri-neft sektoruna investisiya qoyuluşlarının və özəl sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, eləcə də koronavirus pandemiyasının işgüzar mühitə və iqtisadi fəallığa təsirinin minimuma endirilməsi məqsədilə mövcud maliyyə mexanizmlərinin genişləndirilməsi və əlavə dəstək alətləri tətbiq olunacaq.

Biznes kreditlərinə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizminə əsasən, 500 milyon manat həcmində yeni biznes krediti portfelinin 60%-dək hissəsinə dövlət zəmanəti verilir, həmçinin həmin kreditlərin illik faiz dərəcəsinin 50%-i dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm müddəti 3 ilədək, illik faiz dərəcəsi 15%-dən çox olmayan kreditlərə şamil edilir. Bu kreditlər üzrə güzəşt müddəti 12 aya qədərdir.

Qeyd olunan mexanizmin tətbiqində sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da asanlaşdırılması, kredit sifarişlərinə qısa zaman ərzində baxılması, müraciətlərin qəbulu, kredit təşkilatları və Sahibkarlığın İnkişafı Fondu tərəfindən zəruri təhlillərin aparılması və qərarların sahibkarlara çatdırılması kimi proseslər İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan və ilk dəfə tətbiq olunan Elektron Kredit Platforması **(www.e-edf.gov.az)** vasitəsilə həyata keçirilir.

Belə ki, dövlət zəmanəti verilən krediti əldə etmək istəyən sahibkar **Elektron Kredit Platformasına (www.e-edf.gov.az)** zəruri məlumatları daxil edir, müvəkkil kredit təşkilatını seçir və biznes-planına uyğun olaraq kredit məbləğini qeyd etməklə müraciətini təsdiqləyir. Sahibkarlıq subyektinin müraciətinə sürətli kredit (200.000 manatadək) üzrə 7 iş günü, ənənəvi kredit üzrə isə 10 iş günü ərzində baxılır. Fəaliyyət sahəsi pandemiyadan zərər çəkmiş iqtisadi fəaliyyət növlərinə aid olan sahibkarlıq subyektinin müraciətinə imtina verilərsə, səbəb kimi qeyd olunan çatışmazlıqları aradan qaldırdıqdan sonra sahibkarın həmin və ya digər müvəkkil bank vasitəsi ilə yenidən müraciət etmək hüququ vardır.

Biznes kreditlərinin bu elektron sistem vasitəsilə verilməsi sahibkarlar üçün bir sıra üstünlüklər yaradır. Sahibkarlar biznes kreditləri üçün onlayn rejimdə müraciət edir, onların müraciətlərinə müvəkkil kredit təşkilatları və İqtisadiyyat Nazirliyində eyni vaxtda baxılır, müraciətlərin statusunun real vaxt rejimində izlənməsi imkanı yaradılır. Elektron Kredit Platformasının tətbiqi ilə həmçinin, kreditlərin əldə olunmasında çeviklik və şəffaflıq, sahibkarlar üçün bərabər şərait təmin ediləcək, sağlam rəqabət mühiti formalaşdırılacaq, sahibkarların kreditlərə çıxış imkanları genişləndiriləcək, sərf olunan vaxta və xərclərə qənaət olunacaq.

Tətbiq edilən digər yeni mexanizmə uyğun olaraq, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların dövlət zəmanəti olmayan mövcud 1 milyard manat kredit portfeli üzrə 10 mart 2020-ci il tarixədək manatla aldıqları kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi mart ayından başlayaraq 12 ay ərzində dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm kreditlərin müddətindən və faiz dərəcəsindən asılı olmayaraq tətbiq edilir. Bu mexanizmin tətbiqi zərər çəkmiş sahibkarların maliyyə yükünün azaldılmasında əhəmiyyətli rol oynayacaq.

Ümumilikdə qeyd olunan proqramların icrası iqtisadi aktivliyin bərpa olunması, sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların maliyyə əlçatanlığının artırılması, pandemiyadan zərər çəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşunun sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması, maliyyə risklərinin bölüşdürülməsi, maliyyə-bank sektorunun canlanması, pandemiyadan zərər çəkmiş sahibkarların maliyyə vəziyyətinin yaxşılaşdırılması, bank sektorunda likvidlik və problemli kreditlərin həcminin yüksəlməsi risklərinin aradan qaldırılmasına imkan yaradacaqdır.

***Hüseyn KƏRİMOV,***
***"Azərbaycan"***

# Şərq Tərəfdaşlığı ölkələrində gənclər siyasəti ilə bağlı forumda Azərbaycanda bu sahədə qazanılan nailiyyətlərdən danışılıb

"Şərq Tərəfdaşlığı ölkələrində gənclər siyasəti dialoqunun gələcəyi" mövzusunda forum keçirilib.

Forumda Gənclər və İdman naziri Azad Rəhimovla yanaşı, Ukraynanın Gənclər və İdman nazirinin müavini Marina Popatenko, Gürcüstan Milli Gənclər Agentliyinin rəhbəri Revaz Çarkviani, Sloveniya Gənclər Bürosunun direktor vəzifəsini icra edən Dolores Kores, Belarusun Avropa Ekspertiza və Kommunikasiya Bürosunun eksperti Marina Korzh, Litvadan sərbəst təlimçi Laimonas Raqauskas, Almaniyanın Federal Əmək və Sosial İşlər Nazirliyinin dövlət katibi Rolf Şmaktenberq, Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman nazirinin müavini Artur Martirosyan, Avropa Gənclər Forumu İdarə Heyətinin üzvü Benjamin Qünter və digərləri çıxış ediblər.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azad Rəhimov çıxışında pandemiya dövründə nazirliyin həyata keçirdiyi işlərin, demək olar ki, yenidən bərpa olunduğunu, fəaliyyətinin aktivləşdiyini qeyd edib. O, Azərbaycanın müharibə şəraitində olduğunu və ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini iştirakçıların diqqətinə çatdıraraq münaqişələrin gənclər siyasətinin inkişafına mənfi təsir göstərdiyini bildirib.

Gənclərin inkişafı üçün görülən işlərdən danışarkən Azad Rəhimov üç ildən bir keçirilən və bütün ölkə gənclərini əhatə edən Gənclər Forumu, 2005-2009-cu, 2011-2015-ci və hazırda icrası davam etməkdə olan "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı, 1995-ci ildən nazirliyin nəzdində fəaliyyət göstərən İctimai Şura, eyni zamanda, Heydər Əliyev Liderlik Məktəbi, nazirliyin BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi "Qlobal siyasi müzakirələrdə gənclərin fəallığının təmin edilməsi üçün yeni platformanın yaradılması" layihələri və digər mühüm işlərdən danışıb.

Nazir deyib ki, dialoq insanlar arasında ünsiyyətin qurulmasında müstəsna rol oynayır. Lakin bu ünsiyyət qarşılıqlı anlayış və bilik səviyyəsində olmalıdır ki, burada da gənclərin daim hazırlıqlı olmaları əsas amildir. Odur ki, qeyri-formal təhsilin bu dövrdə əsas resurs olduğunu hesab edə bilərik. Hazırda Azərbaycanda 30 Gənclər evi fəaliyyət göstərir ki, onlar da gənclərin inkişafında böyük rol oynayır. Siyasi dialoqun daha səmərəli qurulmasında əyalət gənclərinin iştirakçılığının artırılması, qeyri-formal təhsilin sistematik inkişafı, gənclər üçün sosial təcrübənin artırılması gənclər siyasəti dialoqunun gələcəyinin üç əsas istiqaməti kimi göstərilə bilər.

Tədbirin bölmə iclaslarında "Gənclərin ehtiyaclarını və fikirlərini müzakirə etmək üçün gənclər təşkilatları, qərar qəbul edənlər və mütəxəssislərlə necə görüşürlər?", "Gənclər dialoqunu asanlaşdırmaq üçün hansı idarəetmə strukturları və çərçivələr ən təsirli və səmərəlidir?", "Milli maraqlı tərəflər tərəfindən istifadə olunan vasitə və yanaşmalar hansılardır?", "COVID -19 pandemiyasının gənclər siyasəti dialoqunun inkişafının bugünkü vəziyyətə və gələcəyə təsiri nədən ibarətdir?" mövzularında müzakirələr aparılıb.

# Regionun nəqliyyat qovşağı və logistika mərkəzi

## İlham ƏLİYEV: "Azərbaycan etibarlı tranzit ölkəsi kimi dünya arenasında özünü təsdiqləyib"

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri də ölkəmizin tranzit mərkəzinə çevrilməsini tam təmin etməkdir.

Tarixi "İpək yolu"nun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq dövlətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub. İndinin özündə də Azərbaycan bir sıra ətraf ölkələrlə müqayisədə təbii üstünlüklərə malikdir. Belə ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin ən əlverişli kəsişməsində yerləşir və bu baxımdan, geostrateji mövqeyə malikdir. Bunu nəzərə alaraq ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı, tranzit potensialının artırılması istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilib. Bakıda və ölkənin digər regionlarında beynəlxalq hava limanlarının, beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi, dəmir yolu xətlərinin və təyyarə parkının yenilənməsi xarici iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayır. Bunlar Azərbaycanın tranzit potensialını və tranzit daşımalarında iştirak imkanlarını genişləndirir və ən əsası bütün yollar Azərbaycanda birləşir.

Azərbaycan, Əfqanıstan və Türkmənistan prezidentlərinin iyulun 2-də keçirilən videokonfrans vasitəsilə görüşündə dövlət başçısı İlham Əliyev respublikamızın tranzit imkanlarının artırılması istiqamətində son dövrlər görülən işlər barədə məlumat verdi. "*Azərbaycanda nəqliyyat sektoruna qoyulmuş böyük investisiyalar sayəsində müasir nəqliyyat və logistika infrastrukturu yaradılmışdır*" - deyən İlham Əliyev respublikamızın etibarlı tranzit ölkəsi kimi dünya arenasında özünü təsdiqlədiyini bildirdi.



### "Şərq-Qərb nəqliyyat dəhlizi" tam şəkildə fəaliyyət göstərir

Azərbaycanın ən mühüm coğrafi üstünlüklərindən biri tarixi "İpək yolu"nun üzərində yerləşməsidir. Bu imkandan uğurla yararlanan Azərbaycan tranzit imkanlarını artırmaqla digər dəhlizlərlə müqayisədə yüklərin daha sürətli, səmərəli və təhlükəsiz daşınmasını təmin edir.

Bununla əlaqədar olaraq Azərbaycanın təşəbbüsü və fəal dəstəyi ilə inşa olunan və 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti həm ölkəmizin tranzit imkanlarını artırıb, həm də Avropadan Asiyaya və əksinə yük daşımaçılığında yeni keyfiyyət mərhələsinin əsasını qoyub. Tarixi "İpək yolu"nun bərpası çərçivəsində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində böyük addım olan bu layihə Prezident İlham Əliyevin böyük siyasi iradəsi nəticəsində uğurla reallaşması Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yeni səviyyədə inkişafına şərait yaradıb. Ən əsası bu dəmir yolu bağlantısı daşımaçılıqda yeni mərhələnin başlanması deməkdir. Çünki iqtisadi baxımdan səmərəli, dayanıqlı, təhlükəsiz və ekoloji normalara tam cavab verəcək BTQ dəmir yolu xətti "Şərq-Qərb nəqliyyat dəhlizi"nin əsas elementlərindən olmaqla Cənubi Qafqaz, eləcə də bütövlükdə Avrasiyada ticarət-iqtisadi münasibətlər sahəsində sıx əməkdaşlığa, regionda sosial-iqtisadi artımın sürətlənməsinə, eləcə də ölkələrin qlobal səviyyədə əməkdaşlığının genişlənməsinə böyük töhfə verir.

Onu da xatırladaq ki, Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsinə bir neçə tranzit marşrutu daxildir ki, onlardan biri də Çindən başlayıb Mərkəzi Asiya Respublikalarından, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Avropaya uzanır. Bu baxımdan Azərbaycanın həyata keçirdiyi nəqliyyat layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin iqtisadi səmərəliliyi Çində yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev "Şərq-Qərb nəqliyyat dəhlizi"nin artıq tam fəaliyyət göstərdiyini bildirdi. Dövlət başçısı qeyd etdi ki, bu nəqliyyat dəhlizi ilə 2019-cu ildə 8,7 milyon ton yük daşınmışdır. Cari ilin ilk dörd ayı ərzində bu rəqəm artıq 3 milyon tona çatıb. Qitələri birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu ilə 2020-ci ilin altı ayında daşınmış yüklərin həcmi isə ötən ilin eyni dövrü ilə müqayisədə 3,7 dəfə çoxdur.

### Şimal-Cənub dəhlizi ilə yükdaşımaların həcmi artır

Azərbaycanın iştirak etdiyi nəqliyyat dəhlizlərindən biri "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi"dir. Ölkəmizin tranzit potensialının artırılması istiqamətində görülən işlər bu nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsində işlərin son illərdə daha sürətlə həyata keçirilərək başa çatdırılmasını təmin edib. Bu məqsədlə Prezident İlham Əliyev 2015-ci ilin dekabr ayında "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, bütün qüvvələr səfərbər olunub, Astara stansiyasından İran sərhədinə qədər dəmir yolu çəkilib, Astara çayı üzərindəki dəmir yolu körpüsü tikilib. Azərbaycanda cənub istiqamətində magistral avtomobil yolu da ən müasir standartlar səviyyəsində yenidən qurulub.

Videokonfransda Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dəhlizin Azərbaycan seqmentində bütün işlər başa çatdırılıb. Keçən il bu dəhliz vasitəsilə 2,1 milyon ton, bu ilin ilk dörd ayı ərzində isə 800 min ton yük daşınıb.

### Ölkəmiz qlobal rəqabətdə mühüm uğurlar qazanır

İki il əvvəl Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tam istifadəyə verilməsi isə Asiya ilə Avropanın, Şimalla Cənubun, Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın nəqliyyat dəhlizi kimi önəmini daha da artırdı. Beləliklə, bu gün Azərbaycan özünü təkcə neft və qaz ixrac edən ölkə kimi deyil, həm də beynəlxalq nəqliyyat qovşağı və logistika mərkəzi kimi təqdim edir.

Azərbaycanda Şərq-Qərb və Şimal-Cənub istiqamətində yollar Ələtdən keçir. Ələt qəsəbəsi isə Xəzərin sahilində yerləşir. Göründüyü kimi, yeni limanın burada salınması tamamilə qanunauyğundur. Beləliklə, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaradır. Bu liman ölkəyə daxil olan, ölkədən çıxan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verir, Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edir. Bu kompleks həm də Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gələcəkdə bu limanın imkanları 25 milyon ton yükə və 1 milyon konteynerə qədər artırıla bilər.

Bu gün dünyanı gəmiçiliksiz təsəvvür etmək mümkün deyil. Dəniz nəqliyyatı ticarətin və qloballaşmanın əsasına çevrilib. Gəmilərlə qida məhsulları, texnologiyalar, dava-dərman və digər vacib mallar göndərilir. Dünyada, xüsusən inkişaf etməkdə olan ölkələrdə əhalinin sayı durmadan artır, bununla əlaqədar ucuz başa gələn və səmərəli dəniz daşımaları iqtisadi artım və davamlı inkişaf üçün getdikcə daha çox əhəmiyyət kəsb edir.

Azərbaycanın tranzit imkanlarının artırılması istiqamətində bu məsələ də daim diqqət mərkəzində saxlanılıb. Təsadüfi deyil ki, Azərbaycan Xəzər dənizində 260 gəmidən ibarət ən böyük donanmaya malikdir.

Azərbaycanda fəaliyyət göstərən müasir gəmiqayırma zavodunda 2013-cü ildən bu günə qədər 10 gəmi tikilmiş, 140 gəminin və platformaların təmiri həyata keçirilmişdir. Hazırda zavodda 2 ropaks bərə gəmisi və 3 neft tankeri inşa edilməkdədir. 2021-ci ildə əlavə gəmilərin tikilməsi nəzərdə tutulmuşdur. Bu gəmilər Xəzər dənizi vasitəsilə yükdaşımalarının artırılmasına xidmət edəcək.

Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq Azərbaycan nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində gedən qlobal rəqabətdə böyük uğurlar qazanır. Beləliklə, ölkəmizin tranzit və logistik imkanlarının genişlənməsi baxımından yeni mərhələ başlayıb. Gətirəcəyi iqtisadi dividendlərlə yanaşı, bu imkanların yaradılması həm də Azərbaycanın regionda və dünyada söz sahibi statusunu möhkəmləndirən mühüm faktordur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Müasir dünyamıza daha bir tarixi töhfə

*Əvvəli 1-ci səh.*



Əksinə, bu hərəkəti ilə üzünə tutduğu "demokrat" pərdəsini özü öz əli ilə cırıb atdı. Dünya liderləri yəqin etdilər ki, onun üçün bəşəriyyətin taleyi sonuncu sıradadır. Ön planda olan isə hansısa dövlətə, siyasi liderə qarşı şəxsi münasibətidir. Halbuki Azərbaycan Prezidentinin təşəbbüsü elə erməni xalqının da pandemiyadan xilas edilməsinə yardımçı ola bilər. Məhz Paşinyanın məkrli, səhv siyasətinin nəticəsidir ki, Ermənistanda koronavirus hər gün onlarca can alır. Bu xəstəliyə get-gedə daha çox insan yoluxur.

Bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Koronavirusun son vaxtlar qeydə alınan yayılma sürəti bir daha cənab İlham Əliyevin təşəbbüsünün əhəmiyyətini, aktuallığını artırır. Dünya dövlətlərinin təcili bir araya gəlməsini qaçılmaz edir. Başqa çarə yoxdur. Ya birlikdə əsrin bəlasına çevrilmiş koronavirusun "hökmranlığına" son qoymalıyıq, ya da ayrı-ayrılıqda dəhşətli rəqəmlərlə ifadə olunacaq qədər itkilər verməliyik.

Təbii ki, bəşəriyyət birlikdə müdafiə təşəbbüsünü gözləyir. Amma bu təşəbbüs kimdən, harada və nə zaman gələcəkdi? Yəqin ki, dünya gözünü böyük, qüdrətli dövlətlərə dikmişdi. Amma bu addımı Azərbaycanın dövlət başçısı atdı. İlham Əliyev dünya miqyasında liderlik təşəbbüsünü əlinə aldı. Özündə cəsarət tapıb böyük bir məsuliyyəti üzərinə götürdü. Yəqin ki, hamınızın yadındadır, cənab İlham Əliyev "Razılığınız olarsa, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyanın keçirilməsi təklifi ilə çıxış edə bilərik", - deyəndə ekrandan görünən dövlət başçılarının üzlərində bir məmnunluq, razılıq hissləri oxundu. Dünya birmənalı olaraq bu təşəbbüsü bəyəndi və kütləvi informasiya vasitələri xəbərlər, şərhlər və məqalələr yaydılar. Elə həmin gün və ardıcıl olaraq Macarıstan, İndoneziya, Vyetnam, Özbəkistan, Türkmənistan, Gürcüstan, Türkiyə, Rusiya, Belarus, Venesuela, Argentina, Banqladeş, Komboca, İran, Hindistan və digər ölkələrin KİV-i Prezident İlham Əliyevin təşəbbüsünün bütövlükdə pandemiyaya qarşı aparılan mübarizədə beynəlxalq həmrəyliyə, əməkdaşlığa əvəzsiz töhfə olduğunu qeyd etdilər. Avropa İttifaqının "Euractive" portalı cənab İlham Əliyevin görüşdəki nitqinə xüsusi diqqət yetirdi. Portal dərc etdiyi məqalədə Azərbaycanın pandemiya ilə əlaqədar həyata keçirdiyi tədbirlərə geniş yer ayırdı. Malaziyanın populyar qəzetlərində dərc olunan materiallarda da Azərbaycan Prezidentinin təklifinə böyük rəğbət ifadə olundu. Materiallarda ölkənin Baş naziri Muhyiddin Yassinin iştirak etdiyi videogörüşdən təəssüratları, münasibəti təqdim edildi. O, pandemiyaya qarşı mübarizədə birgə səyləri təşviq edən Azərbaycan Prezidentinin təşəbbüsünün təqdirəlayiq olduğunu vurğuladı.

İtaliyanın "Notizil Geopoliteche" onlayn qəzeti yazdı ki, koronavirusla mübarizədə Azərbaycanın öyrənilməli təcrübəsi var. Qəzet əsas kimi Zirvə görüşündə cənab İlham Əliyevin nitqində söylədiklərini göstərir.

Yeri gəlmişkən, bundan əvvəl İlham Əliyevin təşəbbüsü ilə çağırılan Türk Şurası sammitində də koronavirusa qarşı birgə mübarizə məsələsi müzakirə mövzusu olmuşdu.

Göründüyü kimi, son illərdə Azərbaycan irimiqyaslı iqtisadi layihələrin, qlobal problemlərin həllinə dair təşəbbüslərin müəllifi kimi dünyanın diqqət mərkəzində və gündəmindədir. Təbii ki, hər bir azərbaycanlının fəxr edə biləcəyi mövqeyin, uğurun memarı, müəllifi və rəhbəri cənab İlham Əliyevdir. Onun sayəsində Azərbaycan dünya səviyyəsində hörmət qazanmış, imic və söz sahibinə çevrilmişdir.

Əlbəttə, təşəbbüs, təklif onda səmərəli olur ki, həyatda reallığını tapsın. Azərbaycan təkcə təklif verməklə kifayətlənmir, onun icrasına nail olmaq üçün də səylər göstərir və nəticə əldə edir. Təşəbbüs qaldırılandan dərhal sonra xarici ölkələrdə fəaliyyət göstərən diplomatik korpusumuz işə başladı. Danışıqlar aparıldı, şərhlər verildi. Təbii ki, təşəbbüsün müəllifi olmadıqları üçün qısqanclıq keçirən siyasi dairələr də yox deyildir. Buna baxmayaraq, hərəkata daxil olan üzv dövlətlər BMT-nin Baş katibinə müraciət etdi. Baş Assambleyanın prosedur qaydalarına uyğun olaraq Baş katib üzv dövlətlərə müraciət etdi və onların əksəriyyətinin razılığını aldı.

Bu məqamda bir məsələni xüsusi qeyd etmək istəyirəm. Əslində cənab İlham Əliyev də çox yaxşı bilirdi ki, BMT Baş Assambleyası nadir hallarda xüsusi sessiyalar keçirir. Yalnız üzv dövlətlərin yarıdan çoxu razılıq verdiyi halda bu mümkündür. Amma məsələnin vacibliyi, qlobal əhəmiyyət daşıması, bəşəriyyətin taleyi və beynəlxalq aləmdə şəxsi nüfuzu onu belə bir addım atmağa cəsarətləndirdi. Bu cəsarət özünü doğrultdu. Təklif BMT-nin üzvü olan 130 dövlət tərəfindən dəstəkləndi.

Hazırda BMT-nin müafiq strukturları xüsusi sessiyanın çağırılmasına dair hazırlıq işləri görür.

İnanırıq ki, xüsusi sessiya dünyada, o cümlədən Azərbaycanda əsrin bəlasına çevrilmiş koronavirusun tam aradan qaldırılması yollarının müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət daşıyacaq. Bu da cənab İlham Əliyevin müasir dünyamıza daha bir tarixi töhfəsi olacaq.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Atəşkəs rejimi 52 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı silahlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 52 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Acarlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Azərbaycan dövlətinin turizm sektoruna verdiyi dəstək təqdir olunur

*Əvvəli 1-ci səh.*







Azərbaycan vətəndaşlarının hələlik xaricə gedə bilmədiklərini nəzərə alaraq, əlbəttə, daxili turizm sənayesini dəstəkləyən amil ola bilər".

Bu yerdə biz haşiyəyə çıxmaq istərdik. Məsələ bundadır ki, adətən daxili turizmdə əsas iştirakçı paytaxt sakinləridir. Yəni regionlardakı istirahət mərkəzlərinə üz tutanların əksəriyyəti adətən Bakıda yaşayanlar olur. Bakıdan isə məlum səbəblərdən ən yaxşı halda iyul ayının üçüncü ongünlüyünəcən regionlara gediş-gəliş mümkün olmayacaq. Deməli, sözügedən sektorun daxili turizm hesabına vəziyyətdən müəyyən qədər çıxması sərt karantin tədbirlərinin nə qədər davam edəcəyindən, dolayısı ilə bizim həmin tədbirlərə nə dərəcədə məsuliyyətlə yanaşacağımızdan asılıdır.

Bununla birlikdə bütün dünya, o cümlədən Azərbaycan pandemiyanın ləğvindən sonra turizm sektorunun bərpa yolları üzərində çalışır. Hərçənd bu, elə də asan məsələ deyil, külli miqdarda vəsait tələb edir. Elə COVID-19-un üzündən yaranan iqtisadi böhranda həmin vəsaiti tapmaq da problemdir. Amma belə bir vəziyyətdə Azərbaycan turizm sektorunun postpandemiya dövründə dirçəlməsi üçün bütün tədbirləri görməkdə israrlıdır. Prezident İlham Əliyev: "Əminəm ki, bütün dünyada turizm sahəsi bərpa olunacaq... biz bu sahəyə sərmayə qoyulmasını bundan sonra da davam etdirəcəyik, əcnəbi turistlər üçün daha yaxşı şərait yaradacağıq. Ona görə ki, Azərbaycanda buna kömək edə biləcək bütün amillər var".

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Keçmiş hərbi xunta Paşinyanı devirməyə hazırlaşır

*Əvvəli 1-ci səh.*

Üstəlik, erməni əsilli rusiyalı milyarderlərdən girov qismində çatdırılan Ermənistan üçün misilsiz məbləğ sayılan 2 milyard dram həcmində yardım da onu göstərir ki, bu klana xaricdən dəstək də az deyil. Bu dəstək və Koçaryanın azadlığı üçün verilən pullar həm də onun təsdiqidir ki, Rusiyadakı erməni əsilli oliqarxlar hələ də Ermənistanda daxili siyasi proseslərə təsir etmək imkanına malik olduqlarını Paşinyana göstərmək qərarına gəliblər.

Digər tərəfdən bəllidir ki, Nikol Paşinyan Ermənistanın ikinci prezidentini öz aktivlərini Rusiyadan Ermənistana, daha dəqiqi baş nazirin sərəncamına keçirməyə məcbur etmək arzusundadır. Söhbət milyonlarla dollardan gedir və bu yolda sonuncu axıradək gedəcək. Bu durum isə Rusiyadakı erməni oliqarxlarını razı salmır. Çünki Rusiyanın erməni oliqarxlarının yuxarı təbəqələri Koçaryanın Ermənistanda siyasi hakimiyyətə qayıtmasını arzulayırlar.

Hazırda erməni əsilli Rusiya milyarderləri bu məsələdə Koçaryana hərətərəfli dəstək verməyə hazır olduqlarını gizlətmirlər. Onların sırasında Rusiyadakı erməni iş adamı "Taşir" şirkətlər qrupunun başçısı Samvel Karapetyan da var. Məhz onun rəhbərliyi ilə Rusiyadakı erməni iş adamlarının Ermənistanda baş verənlərə diqqəti artıb. Ermənistanın keçmiş prezidentinin həbsdən azad edilməsi üçün ödənilən vəsaitin mühüm hissəsinin də məhz Karapetyan tərəfindən verildiyi bildirilir. O, Azərbaycanın işğal altında olan Qarabağ bölgəsindəki ermənilərə də yardım edir. Bir tərəfdən də Ermənistanın Vatikandakı sabiq səfiri, Serj Sarkisyanın kürəkəni Mikael Minasyan erməni ictimaiyyəti arasında Nikol Paşinyan barəsində mənfi rəy yaratmaq məqsədilə onu fasiləsiz olaraq gözdən salır.

Pandemiyanın yaratdığı problemlər də bu durumda Paşinyanın əleyhinə işləyir. Ermənistan parlamentinin "İşıqlı Ermənistan" fraksiyasının rəhbəri Edmon Marukyan bu xüsusda bildirir: "İndi iqtisadiyyatın vəziyyəti pisdir, gələcəkdə daha pis olacaq, çünki iqtisadi, sosial, siyasi baxımdan bütün göstəricilər bunu təsdiqləyir. Bu müddət ərzində hakimiyyət nə edir? Hakimiyyət müxalifləri susdurmaq üçün hər şey edir".

O qeyd edib ki, Ermənistanda insanların həyatı getdikcə pisləşir, hakimiyyət isə müxaliflərlə məşğuldur: "Terrorla uzağa getməyəcəksiniz, bunun sonunun nə olduğunu görmüsünüz". O qeyd edib ki, Ermənistan hakimiyyəti müxalifəti ən müxtəlif yollarla susdurmağa çalışır. Bu isə real durumda hakimiyyətdən narazılığın daha da artmasına rəvac verir. Belə vəziyyətdə müxalifət, xüsusən keçmiş hərbi xuntanı hakimiyyətin virus qarşısında acizliyini daha çox ön plana çıxarır.

Xatırladaq ki, Nikol Paşinyan COVID-19-a qarşı mübarizədə aciz olduqlarını müxtəlif açıqlamalarla bildirib. Onun "indi cəhənnəmdə addımlayırıq" ifadəsi ölkədə koronavirusla bağlı yaranmış vəziyyəti tam əks etdirir. Müxalifət və vətəndaş cəmiyyəti isə Nikol Paşinyanın pandemiya ilə mübarizəsinə inanmır. Onlar hesab edir ki, hökumət başçısı fövqəladə vəziyyət rejimindən rəqiblərinə qarşı dəyənək kimi istifadə edir. Bu fonda müxalifət hökumətə qarşı fəaliyyətini genişləndirir və bu da ölkədə durumu daha da ağırlaşdırır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR





**Prezident İlham Əliyevin 27 noyabr 2017-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" respublikamızda qədim ənənələrə malik baramaçılığın inkişaf etdirilməsində mühüm rol oynayır.**

## Fermerlər bol məhsul uğrunda mübarizə aparırlar

Dövlət başçısının bu vacib sahənin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələr Qazaxda da uğurla həyata keçirilir. Bu sahənin inkişafı üçün göstərilən qayğı, xüsusilə hər kiloqram yaş barama üçün verilən subsidiya rayonda ipəkçilyə olan marağı bir qədər də artırıb. Məhz bunun nəticəsidir ki, artıq beşinci ildir burada barama istehsalında yüksək uğurlar əldə edilir. İndi demək olar ki, rayonun əksər kəndlərinin sakinləri baramaçılıqla məşğul olurlar. Alpout, Aşağı Salahlı, Aslanbəyli, Birinci Şıxlı, İkinci Şıxlı, Çaylı, Cəfərli, Daş Salahlı, Dəmirçilər, Hüseynbəyli, Kəmərli, Kosalar, Orta Salahlı, Yuxarı Salahlı, Qaymaqlı və Xanlıqlar kəndləri üzrə barama yetişdirən kümçülər tərəfindən bu il əvvəlki ilə nisbətən xeyli çox yaş barama təhvil verilməsi nəzərdə tutulmuşdur. Artıq bir neçə gündür ki, rayonda barama təhvili başa çatdırılmışdır. Qısa vaxt ərzində kümçülər "Azəripək" MMC-yə 5 min 97 kiloqram yaş barama təhvil vermişlər.





Son illər ölkəmizdə taxılçılığın da inkişaf etdirilməsində mühüm tədbirlər həyata keçirilir. Çünki taxılçılıq əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır. Odur ki, taxılçılığın inkişaf etdirilməsi ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu vacib sahənin inkişafı ilə bağlı dövlətin torpaq mülkiyyətçilərinə verdiyi əlavə subsidiyalar ölkədə taxılçılığın ilbəil genişləndirilməsinə səbəb olur.

Respublikamızda taxılçılığın sürətli inkişafına nail olmaq üçün qarşıya qoyulmuş tələblər Qazax rayonunda da uğurla həyata keçirilir. Belə ki, istər dövlət, istərsə də rayon rəhbərliyi tərəfindən diqqət və qayğı görən fermerlər hər il bu sahənin inkişafına nail olurlar. Qeyd edək ki, əvvəlki illərdə bu sahədə böyük uğurlara imza atan təsərrüfat sahibləri bu il də zəmilərdə bol məhsul yetişdirmişlər. Cari ildə 11395 hektarda əkilən taxılın 6916 hektarı buğda, 4479 hektarı isə arpadır. Zəmilərdə aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsinin nəticəsidir ki, bu il də sahələrdə məhsul boldur.

Hazırda fermerlər arpa və buğda biçininə başlamışlar. Biçinin optimal müddətdə başa çatdırılması üçün bütün qüvvələr səfərbərliyə alınmışdır. Hər gün sahələrə 32 kombayn və bir o qədər də nəqliyyat vasitəsi çıxarılır. İşin yaxşı təşkili nəticəsində iyulun 2-dək arpa sahələrinin 1638 hektarında, buğda sahələrinin isə 235 hektarında biçin aparılmışdır. Buğda sahələrinin hər hektarından 39 sentner, arpa sahələrinin isə hər hektarından 23,4 sentner məhsul götürülür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Tərəvəz sahələrinin hər hektarından 143 sentnerdən çox məhsul götürülür

İmişlili fermerlər cari ilin məhsulu üçün erkən yazda 164 hektar sahədə tərəvəz əkiblər. Məhsul istehsalçıları bitkiyə yaxşı qulluq etdiklərindən sahələrdə bol məhsul yetişib.



Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, bu mövsüm imişlili əkinçilər 164 hektar sahədə tərəvəz becəriblər. Torpaq mülkiyyətçilərinin gərgin zəhməti sayəsində sahələrdə bol məhsul yetişib. Xeyli vaxtdır ki, sahələrdə yetişmiş məhsulun yığımı aparılır və bu günədək 1225,4 ton tərəvəz tədarük edilib. Hər hektarın məhsuldarlığı 143,6 sentner olub ki, bu da ötən ildəkindən 12,9 ton çoxdur. Yığılmış məhsulun 275,5 tonunu xiyar, 562,6 tonunu pomidor, 18,1 tonunu badımcan, 96 tonunu soğan, 101,1 tonunu sarımsaq, 166 tonunu isə sair tərəvəz təşkil edib. Əkinçilər, həmçinin becərdikləri 114,2 hektar kartof sahəsindən bu günədək 1432,6 ton kartof yığıblar.

Rayonda tərəvəz yığımı sürətlə davam edir. Əkinçilər gün ərzində 25-30 hektar sahənin məhsulunu yığırlar.

## Bu mövsüm 135 kümçü ipəkqurdu bəsləyib

Saatlıda dördüncü ildir ki, ipəkqurdu bəslənilir. Dövlət başçısının ölkədə baramaçılığın inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələr Saatlıda da müvəffəqiyyətlə icra olunur.



Baramaçılığın inkişafında əsas amil olan yem bazasının möhkəmləndirilməsi məqsədilə son üç ildə rayonun ayrı-ayrı yaşayış məntəqələrində 124 min tut tingi əkilib, bir neçə yaşayış məntəqəsində müasir kümxana tikilib və digər zəruri tədbirlər həyata keçirilib.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu il rayonda 8 ton barama istehsal olunması nəzərdə tutulub. Bunun üçün 200 qutu (3 min 800 qram) barama qurdu toxumu gətirilərək Saatlı şəhər, Azadkənd, Əliabad, Dəlilər və digər kəndlərdən olan 135 kümçüyə paylanılıb.

Bir neçə gündür ki, rayonda barama tədarükünə başlanılıb. Kümçülər bəslədikləri ipəkqurdlarından əldə etdikləri məhsulu tədarük məntəqəsinə təhvil verirlər. Bu günədək rayon üzrə ümumilikdə 3 ton 242.7 kiloqram barama təhvil verilib ki, bunun da yarıdan çoxunu Azadkənd, Bəylər, Varxan kəndlərinin baramaçıları istehsal edib.

Varxan kənd sakini Eyvaz Əsədov bu mövsüm 3 qutu ipəkqurdu toxumu götürərək bəsləyib. "Bu sahə rayonda yeni olduğundan digər kümçülər kimi ilk illər çətinliklərim olsa da, mütəxəssislərdən öyrəndiklərimi tətbiq etməklə yaxşı nəticələr əldə etmişəm. Bu il 3 qutu ipəkqurdu toxumu götürüb bəsləmişəm. İpəkqurdlarına yaxşı qulluq etdiyimdən məhsul gözlədiyimdən də çox olub. Bu günə kimi tədarük məntəqəsinə 174 kiloqram barama təhvil vermişəm", - deyə kümçü bildirib.

Rayonda barama tədarükü sürətlə davam edir. Qeyd edək ki, ötən il Saatlıda 52 ailə ipəkqurdu bəsləyib.

## Min hektardan çox sahədə təkrar qarğıdalı əkini proqnozlaşdırılır

Taxıl biçini başa çatdıqdan sonra Şəki rayonunun təsərrüfatlarında min hektardan çox sahədə təkrar qarğıdalı əkininin aparılması nəzərdə tutulur. Artıq bu istiqamətdə işlərə də başlanılıb. Qısa müddətdə rayonun Çeşməli, Öryət, Baş Göynük və Aşağı Göynük kəndlərinin ərazilərində 763 hektar sahədə silos üçün təkrar qarğıdalı əkilib.



Bu barədə AZƏRTAC-a Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Sahib Abdulhəmidov məlumat verib.

Qurum rəsmisi bildirib ki, bu il təkrar qarğıdalı əkininə görə fermerlərə toxum almaq üçün dövlət tərəfindən hər hektara 60 manat birdəfəlik vəsait ödəniləcək.

Qeyd edək ki, təkrar əkinlər həm aqroekoloji, həm də iqtisadi baxımdan səmərəlidir. Mütəxəssislər hesab edir ki, respublikada mal-qaranın qüvvəli və yaşıl yemə olan tələbatını tam təmin etmək üçün təkrar əkinlərdən istifadə vacib sayılır. Ölkəmizdə taxıl biçinindən sonra aran və dağətəyi bölgələrdə yerləşən 100 min hektaradək ərazidə təkrar əkinlər aparıla bilər. Ölkə üzrə təkrar əkin sahələrinin hər hektarından 350-400 sentner yaşıl kütlə və ya 40-50 sentner dən məhsulu əldə etmək mümkündür.

## Çoxmərtəbəli yaşayış binalarının dam örtüklərində təmir işləri aparılır

Naftalanda həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işlərinin tərkib hissəsi kimi, şəhərdəki çoxmərtəbəli yaşayış binalarının dam örtüklərində təmir işlərinə başlanılıb.



Naftalan Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, şəhər sakinlərinin müraciətləri əsasında, intensiv yağışlar yağan zaman su sızmalarının qarşısının alınması məqsədilə çoxmənzilli yaşayış binalarının dam örtüklərində zəruri tədbirlər həyata keçirilib.

Belə ki, xüsusi qaldırıcı texnikanın köməkliyi ilə çoxmərtəbəli yaşayış binalarının dam örtükləri və yağış suları axıdılan novalçalar təmizlənib, həmçinin sıradan çıxmış novalçalar yenisi ilə əvəz olunub.

Həmçinin şəhərdə 3 doqquz mərtəbəli yaşayış binasının fasad örtüyünün şüşə üzlükləri yuyularaq təmizlənib.



## Çörək olarsa...

**Füzuli rayonunda təsərrüfat işlərinin qızğın çağıdır. Pambıq tarlalarının becərilməsi yüksək aqrotexniki qaydalar əsasında davam etdirilir. Rayonun kümçüləri baramaçılıqda cari ilin proqnoz tapşırığına artıqlaması ilə əməl edərək təsərrüfat ilinin ilk uğurunu gerçəkləşdirmişlər. Meyvə, tərəvəz istehsalı da sürətlə davam edir.**

Bugünün hünər meydanı isə taxıl zəmiləridir. Aqrar rayon olan Füzulidə kənd təsərrüfatı məhsulları istehsalının intensiv amillər hesabına artırılmasına böyük önəm verilir. Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə rayon ərazisində karantin rejimi çərçivəsində qabaqlayıcı tədbirləri, sosial izolyasiya işlərini sistemli və tələb olunan səviyyədə həyata keçirməklə yanaşı, təsərrüfat işlərinin də optimal müddətdə və səmərəli şəkildə görülməsi üçün tədbirlər görülür.

Çörəyin bolluğu ölkənin iqtisadi qüdrətini şərtləndirən əsas amillərdəndir. Cəbhə bölgəsində yerləşən, ərazisinin xeyli hissəsi uzun illərdən bəri Ermənistan silahlı qüvvələrinin işğalı altında saxlanılan Füzuli rayonunda taxılçılığın inkişafına xüsusi fikir verilir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü təşkilat-təsərrüfat tədbirlərinin məntiqi nəticəsidir ki, son illər Füzuli ölkənin 100 min tondan çox taxıl istehsal edən rayonları arasında qabaqcıl mövqeyini inamla qoruyub saxlayır. İndi rayonun təsərrüfatlarında taxıl biçininin qızğın çağıdır. Rayonun "Sarı kəhrəba" ustalarının fədakar əməyi sayəsində zəmilərdə bol məhsul yetişdirilmişdir. Bu ilin məhsulu üçün 37 min hektardan artıq sahədə taxıl əkilmişdir. Hazırda bol məhsullu zəmilərdə 50 ədəd taxılyığan kombayn işləyir. Rayonda bütün qüvvələr taxıl biçini kampaniyasını müvəffəqiyyətlə başa vurmaq, bir sünbülün belə itkiyə getməməsinə yol verməmək uğrunda mübarizəyə səfərbər edilmişlər. Məqsəd hər hektardan 30 sentnerdən artıq məhsul götürmək, 100 min tonçular sırasındakı mövqeyi daha da möhkəmləndirməkdir.

Qarabağ müharibəsinin hələ bitmədiyi bir zamanda bizə çörəyin bol olması da çox lazımdır. Sevimli şairimiz Səməd Vurğun demişdir: "Çörək bol olarsa, basılmaz vətən".

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



## Yarım ilin nəticələri heyvandarlar üçün uğurlu olub

Ağsu rayonunda heyvandarlıq kənd təsərrüfatının aparıcı sahələrindəndir və ötən yarım il bu sahədə çalışanlar üçün uğurlu göstəricilərlə başa çatıb.



Rayon statistika idarəsindən AZƏRTAC-a bildirilib ki, heyvandarlıq bölgədə ənənəvi təsərrüfat hesab edilir və son illər bu sahədə dinamik inkişaf davam edir. 2020-ci ilin ötən 6 ayında da ötən ilin müvafiq dövrünə nisbətən məhsul istehsalında artım olub. Belə ki, yarım ildə diri çəkidə 2708 ton ət istehsal edilib ki, bu göstərici ötən ilin müvafiq dövründəkindən 93 ton çoxdur. Süd istehsalı da 15 ton artaraq 14 min 944 tona, yun istehsalı 4 ton artaraq 314 tona, yumurta istehsalı 622 min ədəd çoxalaraq 8 milyon 124 min ədədə çatıb.

Rayonun demək olar ki, bütün ərazilərində, xüsusilə Gəgəli, Qaraqoyunlu, Kəndoba, Bozavand, Ərəbmehdibəy və bir sıra digər yerlərində daha yüksək artıma nail olunub.

## Tütün yarpağı yığımına başlanılıb

Bir neçə gündür Masallı rayonunda tütün yarpağı yığımına başlanılıb. Qısa müddətdə sahələrdən 5 ton tütün yarpağı yığılıb.

Bu barədə Masallı Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a məlumat verilib. Bildirilib ki, bu il rayonda tütünçülüklə məşğul olan fermerlər və məhsul istehsalçıları 50 hektar sahədə tütün əkiblər. Məhsul istehsalçıları əkin zamanı daha çox "İmunium" növlü ətirli və qiymətli tütünə üstünlük veriblər.

Rayonda tütünçülüklə məşğul olan fermerləri narahat edən əsas problemlərdən biri məhsulun tədarükü və emalı ilə bağlıdır. "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nda istehsal olunmuş tütün məhsullarının tədarükü, saxlanması və emalının, həmçinin, Masallı rayonunda tütün qurutma məntəqələrinin yaradılması nəzərdə tutulub. Masallı rayonunda tütün qurutma və tədarük məntəqələrinin yaradılması ilə bağlı rayon icra hakimiyyəti tərəfindən aidiyyəti qurumlar barədə məsələ qaldırılıb. Problemin həlli rayonda tütünçülüyün inkişafı üçün geniş imkanlar yaradıb.

Qeyd edək ki, ötən il Masallı rayonunda 35 hektarda tütün əkilib. Məhsul istehsalçıları Şəki şəhərində fəaliyyət göstərən tədarük məntəqəsinə-"İlham" MMC-yə 53,4 ton, "Azərkooperasiya"ya 2,8 ton, "Tobako-G" MMC-yə isə 1 ton qurudulmuş tütün təhvil veriblər.

Bu il rayonda sahələrdən 60 tondan çox tütün yarpağının yığılması nəzərdə tutulub.

# Məsuliyyətsizlik ölkəmizdə epidemioloji coğrafiyanı genişləndirir

## Təhlükədən qurtulmaq üçün ictimai qınaq faktorundan istifadə etməliyik

**COVİD-19-la ölüm-dirim savaşı davam edir. Bəşəriyyət heç bir zaman bu qədər sürətlə yayılan xəstəliklə qarşı-qarşıya qalmamışdı. Koronavirus hər keçən an yoluxma sayını sürətlə artırır, virusun aldığı canlar dayanmadan artır.**

Ölkələrdə karantin rejimləri sayəsində yoluxmalarla bağlı müəyyən sabitləşmə meylləri müşahidə olunsa da, yumşalmalara keçid özü ilə bərabər infeksiyanın ikinci dalğasını alovlandırdı. Hazırda koronavirus sözün əsl mənasında dünyanı mat qoyub, həyatı iflic edib. Ölkələr iqtisadi uçuruma yuvarlanıb, xaos içərisində bu bəladan necə qurtulacağını bilmirlər.

Ümid qalıb yalnız peyvəndin tez bir zamanda tapılmasına...

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) eksperti Anna Maria Henao-Restrepo, hazırda dünyada klinik sınaqlarda olan 17 növ vaksinin nəticələrinin gözlənildiyini bildirib. Söyləyib ki, ÜST mütəxəssisləri nəticədən asılı olaraq peyvəndlərin effektivliyini qiymətləndirəcək. Amma ekspert onu da əlavə edib ki, bütün bunlara baxmayaraq, hazırda heç bir nəticənin əldə olunmaması səbəbindən koronavirus əleyhinə peyvəndin nə zaman hazırlanacağını söyləmək mümkün deyil.

Göründüyü kimi, yeni növ koronavirusdan qorunmaq üçün yeganə çıxış yolları budur: sosial izolyasiya, maska taxmaq və gigiyenik qaydalara riayət etmək.

Pandemiyanın bu tələblərinə tam əməl edilmədiyi üçün COVID-19-dan nə zaman yaxa qurtarılacağını söyləmək mümkün deyil...

### Vətəndaşların etibarlı müdafiəsi

Azərbaycan koronavirusun yaranıb yayılmağa başladığı və hələ bir çox ölkələrin virusa etinasız yanaşdığı bir dövrdən onunla mübarizə aparmağa başladı. Vətəndaşların etibarlı müdafiəsi, qlobal təhlükədən minimum itkilərlə çıxması üçün səmərəli tədbirlər həyata keçirdi. ÜST-ün tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq virusun geniş yayılmasının qarşısını almaq üçün ölkəmizdə mərhələli şəkildə effektiv işlər həyata keçirilməyə başlandı.

Nəticədə çox qısa zaman kəsiyində virusa yoluxma sayında əhəmiyyətli azalmalar oldu, sağalanların sayı xeyli artdı. Bütün istiqamətlərdə COVID-19-la aparılan mübarizədə nailiyyətlər əldə olundu və vətənimizdə normal həyata dönüş sürətlənməyə başladı. Tədricən karantin rejimi yumşaldıldı, iş yerləri fəaliyyətlərini bərpa etdi, metro stansiyaları sərnişinlərinə qovuşdu.

Amma bu mərhələdə pandemiyanın tələb etdiyi qaydalar yerinə yetirilməli, əhali daha diqqətli olmalı idi. Bu, sirr deyil ki, adi bir diqqətsiz davranış böyük fəsadlara yol açır, qırılması çətin və uzun yoluxma zəncirinə çevrilir. Yeni növ koronavirusu digər viruslardan daha təhlükəli edən də bu xüsusiyyəti, anidən yoluxma sayını birdən minə çevirməsidir.

### Təhlükənin varlığına biganə yanaşmanın ağır nəticələri

Çox təəssüf, elə bu həssas dönəmdə təhlükənin varlığına biganə yanaşdıq, onu heçə sayıb qaydalara uymadıq, tələbləri pozduq. Unutduq ki, normal həyata tezliklə qovuşmağımız, sərgilədiyimiz davranışlarla birbaşa bağlıdır. Yumşaldılma ərəfəsində kütləvi şəkildə qaydaların pozulması ölkəni virusla mübarizənin əvvəlinə qaytardı. Yoluxma, ölüm sayları artdı, sağalanların sayı azaldı, tibb müəssisələrinin yükü ağırlaşdı. Müşahidə edilən bu mənfi dinamikaya görə karantin rejiminin müddəti uzadıldı, iyunun 12-dən etibarən yoluxma sayı yüksək olan bəzi şəhər və rayonlarda sərt karantin rejimi elan olundu.

Amma nə fayda, bu müddətdə də maska taxmayanlar, karantin qaydalarını pozanlar kifayət qədər oldu. Hətta tətbiq olunan cərimələr belə bəzilərinin məsuliyyətsizliyinin qarşısına keçməkdə aciz qaldı. Ölkəmizin yaşadığı bu çətin günlərdə şəxsi istirahətini düşünənlər, icazə olmayan rayonlarda dincəlmək istəyənlər, şadlıq düzənləyənlər, sosial məsafə gözləməyənlər, maskadan aksesuar kimi istifadə edənlər tapıldı. Bu sayədə virusa qalib gəlmək əvəzinə, onun əhatə dairəsini daha da genişləndirdik.

### Sərtləşdirilmiş karantin rejimi yenidən uzadıldı

Ölkəmizdə COVID-19-a yoluxma hallarının sürətlə artması, gündəlik yoluxma sayının 500-ün üzərində olması, zəruri addımlar atılmasını labüd etdi. Yenidən sərtləşdirilmiş karantin rejimi daha 2 həftə müddətinə uzadıldı. Təəssüf ki, daha əvvəl sərt karantin rejimi elan edilən şəhər və rayonlarımıza yeniləri də əlavə olundu. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına əsasən, Goranboy, Göygöl və Mingəçevir şəhərləri, Bərdə, Xaçmaz, Samux, Siyəzən və Şəki rayonları daxil olmaqla, Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron rayonunda xüsusi karantin rejimi iyulun 5-dən 20-dək uzadılır. Həmçinin iyulun 4-dən 20-nə kimi Bakı metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılır.

Xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda karantinin qüvvədə olduğu tarixlərdə həftəsonu (şənbə-bazar) bütün ictimai nəqliyyat dayandırılır.

Eyni zamanda bütün ölkə ərazisində ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda 5 nəfərdən artıq qruplarda cəmləşmək qadağan edilir.

### Məsuliyyətsizliyin artırılmış cəzası

Sərgilənən vətəndaş məsuliyyətsizliyinin qarşısını almaq və virusa yoluxma tempini azaltmaq üçün atılan qabaqlayıcı addımlardan biri də cərimələrin artırılmasıdır.

Artıq pandemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti tərəfindən müəyyən edilən tələblərin pozulmasına görə, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə, fiziki şəxslər 100 manat məbləğində, vəzifəli şəxslər 200 manat məbləğində, hüquqi şəxslər 400 manat məbləğində cərimə edilir.

Bu xətanın qanun qüvvəyə mindiyi gündən 1 il ərzində təkrar törədilməsinə görə, fiziki şəxslərə 200, vəzifəli şəxslərə 400, hüquqi şəxslərə isə 800 manat məbləğində cərimə yazılacaq.

### Qoyulan tələblərə maksimum əməl edilməsinə çalışmalıyıq

Amma arzuladığımız gedişat bu deyil. Hər birimiz karantinsiz, cərimənsiz bir həyat sürmək istəyirik. İstəyirik heç bir cərimə olmadan vətəndaşlar sağlamlığının, təhlükəsizliyinin qayğısına özləri qalsınlar. Onlar epidemiyanın yayılmasına rəvac verən bütün təhlükəli davranışlara qarşı mübarizə aparsınlar. Maska taxmayan, məsafə saxlamayan, yas mərasimlərində iştirak edən, qohum-qonşunu ziyarətə gedənləri bu əməllərindən çəkindirsinlər. Özlərinin və başqalarının sağlamlığını təhlükəyə atdığını izah etsinlər. Tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə bütün cəmiyyətin, fərdi qaydada hər bir vətəndaşın üzərinə böyük məsuliyyət qoyur. Reallıqdır ki, polis baş verən bütün qayda pozuntularının qarşısını ala bilməz. Bu, fiziki mənada da mümkün deyil. İndiki halda hər birimiz qoyulan tələblərə maksimum əməl edilməsinə çalışmalı, ictimai nəzarətçiyə çevrilməliyik. Cəmiyyət olaraq bu təhlükədən qurtulmaq üçün mütləq ictimai qınaq faktorundan istifadə etməliyik.

Belə olarsa, heç bir infeksiya, virus birgə gücümüz qarşısında duruş gətirə bilməz və birdəfəlik məhvə məhkum olar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan dövləti koronavirusun qarşısının alınması üçün zəruri addımlar atır

## Sərt karantin rejimi sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq baxımından vacibdir

**İl başlayandan bəşəriyyət COVID-19 adı verilən yeni tip koronavirusla mübarizəyə atılıb. Altı aydır dünyanın bütün ölkələri öz səylərini koronavirusla mübarizəyə və profilaktika tədbirlərinə yönəldib. Dövlətlər qlobal pandemiyaya qarşı savaşda müxtəlif üsullara əl atsa da, hələ də koronavirusa qalib gələ bilmirlər.**



Bu kiçik mikroorqanizm hər gün minlərlə insanı yoluxdurur, canlar alır. Artıq dünyada COVID-19-a yoluxan xəstələrin sayı 11 milyonu ötüb, 600 minə qədər insan virusdan həyatını itirib. Heç bir ölkənin səhiyyə sistemi sayı sürətlə artmaqda olan xəstələrin müalicəsini tam təşkil edə bilmir.

Azərbaycanda indiyədək koronavirus infeksiyasına yoluxma faktı 19 mini keçib. İyulun 2-ə olan məlumata görə, ölkədə müalicəsi davam etdirilən koronaviruslu xəstələrdən 241 nəfəri reanimasiyalardadır ki, onlardan da 51-i süni tənəffüs cihazına qoşulub. Ölkəmizdə ötən müddət ərzində bu virusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin sayı isə 500 mini ötüb.

### Azərbaycan dövləti üçün heç nə əhalinin sağlamlığından öndə ola bilməz

Azərbaycan dünyanı bürümüş pandemiyaya qarşı mübarizədə ən ciddi tədbirlər görmüş ölkələr sırasındadır. Dövlət koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması məqsədi ilə lazımi, zəruri addımlar atır. Prezident İlham Əliyevin rəhbərliyi və şəxsi nəzarəti ilə yanvar ayından başlayaraq səmərəli tədbirlər həyata keçirilir. Tibbi baxımdan ən inkişaf etmiş ölkələrin belə, bu xəstəliklə mübarizədə aciz qaldığı zamanda ölkəmizdə pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atıldı. Dövlətimiz bütün imkanlarını virusun fəsadlarının aradan qaldırılmasına səfərbər etdi. Ölkəmiz bu çətin durumdan az itkilərlə çıxmaq üçün vaxtında qabaqlayıcı tədbirlər həyata keçirərək nümunəvi mübarizə ortaya qoydu.

Lakin mayın əvvəlindən həyata keçirilən yumşalma tədbirləri bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da xəstəliyin yayılma sürətini artırdı. Bəzi vətəndaşların məsuliyyətsizliyi, qoyulan qaydalara riayət olunmaması, sosial məsafə saxlanılmaması, maska taxılmaması nəticəsində iyun ayının ortalarından ölkə ərazisində koronavirusa gündəlik yoluxma hallarının sayı 500-ü ötdü. Bu da yoluxma hallarının daha çox qeydə alındığı bəzi ərazilərdə sərt karantin rejiminin yenidən tətbiqini zəruri etdi.

Nazirlər Kabineti yanında Operativ Qərargah COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Sumqayıt, Yevlax, Goranboy, Göygöl və Mingəçevir şəhərləri, Bərdə, Xaçmaz, Samux, Siyəzən və Şəki rayonlarında xüsusi karantin rejiminin 5 iyul saat 06:00-dan 20 iyul saat 06:00-dək uzadılmasına qərar verdi.

Bundan başqa, 4 iyul saat 00:00-dan 20 iyul saat 06:00-dək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti, eləcə də xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda 2 həftə ərzində şənbə və bazar günləri bütün ictimai nəqliyyatın hərəkəti dayandırılır. Virusa yoluxma dinamikasının azaldılması istiqamətindəki tədbirlər çərçivəsində bütün ölkə ərazisində ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda 5 nəfərdən artıq qruplarda cəmləşmək qadağan edilir.

Vətəndaşlar anlamalıdılar ki, sərt karantin rejimi sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq baxımından vacibdir. Hazırda qoyulmuş qaydalara əməl etmək, məsafə saxlamaq, təcrid olunmaq, maska taxmaq virusa yoluxmanın qarşısını alan əsas şərtlərdəndir.

Ekspertlərin dəfələrlə müraciət etməsinə baxmayaraq, bəzi vətəndaşlar ya maskadan istifadə etmirlər, ya da maskanı düzgün taxmırlar. İnsanların sıx olduğu yerlərdə - ictimai nəqliyyatda, iş yerlərində, marketlərdə maskanı düzgün taxmaq, yəni maska ilə ağız, burun boşluğunu bağlamaq vacibdir. İnsanlar tək özlərini deyil, yaxınlarını, ətrafdakıları da düşünməlidirlər. Hər kəs özünün və digərlərinin sağlamlığına ziyan vurmamaq üçün qaydalara riayət etməlidir. Vacib olmadıqca yaşayış yerini tərk etməməli, insanların sıx toplaşdığı ərazilərdə maska taxmalı, sosial məsafəni qorumalıdır. Hazırda dövlətlə yanaşı, hər bir vətəndaş özü öz sağlamlığının keşiyində durmalıdır.

Vətəndaşlarının sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi hər zaman olduğu kimi, bu çətin günlərdə də Azərbaycan dövləti üçün ən mühüm prioritet vəzifədir. Pandemiya dövründə əhalinin sosial təminatı və iqtisadi dayanıqlılığının təmin edilməsi üçün bütün tədbirlər görülüb və hazırda da görülməkdə davam edir. Bu isə onun göstəricisidir ki, Azərbaycan dövləti üçün heç bir səbəb əhalinin sağlamlığından öndə ola bilməz.

### Azərbaycan həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparır

Bu gün qlobal pandemiyaya qarşı Azərbaycan tərəfindən aparılan effektiv mübarizə dünyanın da diqqətindən kənarda qalmayıb. Həyata keçirdiyi mübarizə tədbirlərinə görə beynəlxalq səviyyədə təqdir olunan Azərbaycan dövləti koronavirusun qarşısının alınmasında yalnız yerli nümunələr yaratmaqla kifayətlənmir. Prezident İlham Əliyev virusun qlobal problemə çevrilməsini nəzərə alaraq onunla mübarizədə ölkələr arasında və beynəlxalq təşkilatlar çərçivəsində həmrəylik və əməkdaşlığı zəruri hesab edir.

Koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayan Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırdı. Martın 13-də Azərbaycan tərəfindən ÜST-ün strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalandı.

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşlərini təşkil etməklə dünyanı birləşdirdi. Azərbaycan BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüs irəli sürdü, bu təşəbbüs Qoşulmama Hərəkatının üzvləri, dünyanın 130-dan çox ölkəsi tərəfindən yekdilliklə dəstəkləndi.

Azərbaycan COVID-19-la mübarizə məqsədilə fərdi qaydada 14 ölkəyə, ÜST xətti ilə Quşulmama Hərəkatına üzv 15 ölkəyə, ümumilikdə 29 ölkəyə humanitar yardım göstərib. Bu da onu deməyə əsas verir ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır.

İyulun 2-də Azərbaycan Prezidenti İlham Əliyev, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun videokonfrans vasitəsilə görüşündə hər üç ölkənin COVID-19-a qarşı mübarizə aparmaq üçün beynəlxalq təşəbbüslərdə fəal iştirak etdiyi vurğulanıb. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov koronavirusa qarşı mübarizə və pandemiyanın sosial-iqtisadi təsirlərinin azaldılması istiqamətində Türkmənistanın təşəbbüslərinə hərtərəfli dəstək verdiyinə görə Azərbaycan və Əfqanıstan prezidentlərinə minnətdarlığını ifadə edib. Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani koronavirus pandemiyası ilə mübarizəyə toxunaraq əfqan xalqına məhsullar göndərdiyi üçün Azərbaycana minnətdarlığını bildirb və bunu yüksək dəyərləndirdiklərini söyləyib.

İyulun 3-də Ukraynanın Xarici İşlər nazirinin birinci müavini Əminə Caparova Azərbaycanın bu ölkədəki səfiri Elmira Axundova ilə görüşündə də vurğulayıb ki, pandemiya dövründə Azərbaycan Ukraynaya digər ölkələrlə müqayisədə ən böyük humanitar yardım edib. Buna görə Azərbaycan dövlətinə təşəkkürünü çatdıran Ə. Caparova iki ölkə arasında əməkdaşlığın inkişafından məmnun olduqlarını ifadə edib.

Göründüyü kimi, pandemiyaya qarşı mübarizə sahəsində nümunəvi ölkə kimi Azərbaycanın və dövlət başçısının təşəbbüsləri təqdir olunur, həyata keçirdiyi tədbirlər yüksək dəyərləndirilir. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə təkcə insanlar deyil, dövlətlər də bir olmağa, birlikdə mübarizə aparmağa borcludurlar. Çünki hazırkı çətin vəziyyətdə dünyanın həmrəyliyə və əməkdaşlığa ciddi ehtiyacı var.

Azərbaycan həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparır. Qalır bircə ölkə daxilində vətəndaş həmrəyliyi nümayiş etdirərək virusa qarşı birgə savaşmaq. Hazırda bu bəladan qurtulmağın əsas yolu vətəndaş məsuliyyətindən keçir. Birlikdə vətəndaş məsuliyyəti nümayiş etdirməklə, Operativ Qərargahın qaydalarına intizamla yanaşmaqla COVID-19 infeksiyasının yayılmasının qarşısının alınmasına kömək ola bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Mədəni xidmət pandemiya dövrünün tələblərinə uyğun davam edir

Koronavirus adlı kabus xeyli vaxtdır ki, bəşəriyyətin rahatlığını pozur, insanların həyatına son qoyur, ən inkişaf etmiş dünya dövlətlərinin iqtisadiyyatına sarsıdıcı zərbələr vurur. Azərbaycan Prezidenti İlham Əliyevin vaxtında həyata keçirdiyi zəruri tədbirlər, dövlət səviyyəsində qəbul edilən qərarlar sayəsində pandemiya dövründə ölkə iqtisadiyyatına, insanların sağlamlığına dəyə biləcək zərbələrin qarşısı maksimum alınır.









Tətbiq edilən sərt karantin rejiminin əsas məqsədi bəşəriyyət üçün ciddi problem olan "COVID-19"un ağır sınaqlarından nisbətən az itkilərlə çıxmağı təmin etməkdir. İnkar edilməyən bir həqiqətdir ki, vəziyyətin kifayət qədər ciddi olmasına baxmayaraq, ölkədəki mövcud müdrik idarəetmə sistemi iqtisadiyyatın ahəngdar inkişafını uğurla tənzimləyir. Paytaxtda və regionlarda möhtəşəm infrastruktur layihələrinin icrası davam etdirilir. Tikinti-quruculuq işləri səngimir, bölgələrdə məktəblər, xəstəxanalar, zavodlar tikilir, yollar çəkilir, körpülər salınır. Ölkənin mədəni həyatındakı inkişaf, pandemiya dövrünün diktə etdiyi yeni fəaliyyətin forma və metodları diqqət çəkir. Bu baxımdan Bərdə Regional Mədəniyyət İdarəsində həyata keçirilən kompleks tədbirlər zamanın tələbləri ilə daha çox uzlaşır, nəticə etibarı ilə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2019-cu il tarixli sərəncamına əsasən, 2020-ci ilin "Könüllülər ili" elan olunması ilə əlaqədar Bərdə Regional Mədəniyyət İdarəsinin tabeliyindəki müəssisələrdə könüllü gənclər mədəniyyət sahələrinə cəlb edilmiş və gənc mədəniyyət işçilərinin kreativ qrupu ilə könüllülərin birgə təşkilatçılığı yaradılmışdır.

Ölkəmizdə gənclər hər zaman dövlət qayğısının mərkəzində yer alırlar. Dövlət səviyyəsində 2020-ci ilin "Könüllülər ili" elan edilməsi də, təbii ki, bu məntiqin nəticəsidir. Könüllülərin sırası tamamilə gənclərdən ibarətdir. Regional mədəniyyət idarəsinin əhatə etdiyi şəhər və rayonlardakı müəssisələrə cəlb edilən könüllülərin pandemiya şəraitindəki səmərəli fəaliyyəti özünəməxsus forma və məzmunu ilə diqqət çəkir.

Bərdə Regional Mədəniyyət İdarəsi Mingəçevir və Yevlax şəhərlərini, Bərdə və Tərtər rayonlarını əhatə edir. Bölgələrdəki Heydər Əliyev mərkəzləri tərəfindən "ASAN xidmət" könüllüləri ilə sıx qarşılıqlı əlaqə şəraiti yaradılmışdır. Könüllülər mərkəzin bir çox tədbirlərində fəal iştirak edirlər. Bu sıradan olan görüşlərdə Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəaliyyəti, əlamətdar və tarixi hadisələr, dövlət quruculuğu, gənclərin dünyagörüşünü və ictimai-siyasi fəallıqlarının artırılması ilə bağlı maraqlı söhbətlər dinlənilir, müzakirələr aparılır.

Karantin dövrü ərzində gənc mədəniyyət könüllüləri bir neçə layihənin həyata keçirilməsində yaxından iştirak etmişlər. Bu baxımdan gənc yazarlardan ibarət şeir müsabiqələri, "Musiqili xatirələr" adlı karaoke yarışmaları, "Azərbaycan üçün birlikdə oxu" və digər uğurlu layihələr daha çox diqqət çəkir. Eyni zamanda mədəniyyət könüllüləri tərəfindən aktual mövzularda video-çarxlar hazırlanmış, karantin qaydalarına ciddi əməl edilməklə şəhid ailələrinin evlərinə gedilmiş, həyətlərində abadlıq işləri aparılmış, həmçinin xüsusi qayğıya ehtiyacı olan, yaşı 65 və daha yuxarı vətəndaşlara ərzaq və tibbi ləvazimat yardımları edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışı karantin dövründə bölgənin mədəniyyət işçilərinin fəaliyyət devizinə çevrilmişdir. Ölkədə karantin rejimi elan edilən gündən etibarən regionun mədəniyyət müəssisələri fəaliyyətlərini onlayn şəkildə davam etdirirlər. Heydər Əliyev Mərkəzləri, tarix-diyarşünaslıq muzeyləri, rəsm qalareyaları müxtəlif dillərdə virtual ekskursiyalar təşkil edərək sosial şəbəkələrə yerləşdirmişlər. Bununla yanaşı, tarixi və əlamətdar günlərlə əlaqədar baxımlı video-çarxlar hazırlanıb təqdim edilmişdir.

Mədəniyyət müəssisələrinin pandemiya dövründəki fəaliyyəti yalnız onlayn çərçivədə həyata keçirilir. İş planlarına uyğun olaraq keçirilən tədbirlərdə onlayn formatı əsas götürülür. Regional idarənin tabeliyində olan mərkəzləşdirilmiş kitabxana sistemi və onların filialları onlayn qaydada fəaliyyət göstərərək kitabları PDF formatında oxuculara çatdırır, video-çarxlardan məqsədyönlü şəkildə istifadə edirlər.

Regional Mədəniyyət İdarəsinin tabeliyində olan müəssisələr pandemiya dövründə çağdaş günümüzün diktə etdiyi "Yaradıcılığı evdə öyrən", "Evim, yeni iş yerim", "Eyvana çıx", "Evdə qal, sağlam qal", "Evdə qal, musiqisiz qalma", "Canlı kitab", "Evdə qal, evdə yarat" kimi layihələrə qoşularaq onlayn tədbirlər, konsertlər, video-çarxlar təşkil etmişlər. Regional idarənin rəisi İlyas Hacıyev bizimlə söhbətində deyir:

- Pandemiya dövrünün daha çox diqqət çəkən layihəsinin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Regional idarənin musiqi məktəblərinin təşəbbüsü ilə Azərbaycan, Türkiyə, Amerika, Fransa və İranda yaşayan həmvətənlərimiz onlayn şəkildə "Sarı gəlin" xalq mahnısını ifa etmişlər. Bu qiymətli layihə ona görə böyük əhəmiyyətə malikdir ki, dünyanın harasında yaşamasından asılı olmayaraq azərbaycanlıları malik olduqları eyni mədəni dəyər birləşdirir. Bu dəyər azərbaycançılıqdır, vahid mədəniyyətdir, soya, kökə bağlılıqdır. Pandemiya dövründə regional idarənin tabeliyində olan uşaq incəsənət və musiqi məktəbləri beynəlxalq festival və müsabiqələrdə ölkəmizi uğurla təmsil etmişlər. Cari ilin 18-20 may tarixində Türkiyədə keçirilmiş beynəlxalq müsabiqədə Mingəçevir şəhər şəhid Fəxrəddin Qasımov adına Uşaq incəsənət məktəbi müsabiqənin Qran-prisinə və birinci diplomuna layiq görülmüşdür. "Banu" rəqs qrupu 23 Aprel Beynəlxalq Uşaq Günü münasibətilə Türkiyədə onlayn şəkildə keçirilən beynəlxalq müsabiqədə uğurla iştirak edərək 9-12 və 13-15 yaş qrupları üzrə birincilik qazanmışdır. Türkiyənin Bengütürk kanalında yayımlanan "Azərbaycan rüzgarı" verilişində Bərdə Regional Mədəniyyət İdarəsinin musiqi məktəblərinin uğurlu fəaliyyəti geniş şəkildə işıqlandırılmışdır.

İlyas Hacıyevin ətraflı söhbətindən öyrəndik ki, ölkədə karantin rejimi tətbiq olunduğu tarixdən etibarən bölgənin mədəniyyət müsəssisələrində 1281 dəfə dezinfeksiya işləri aparılmış, sosial dəstəyə ehtiyacı olan 1513 nəfərə ərzaq və tibbi yardım edilmiş, 854 onlayn tədbir keçirilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# QMİ-də din xadimləri ilə videokonfrans formatında görüş keçirilib

**İyulun 3-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə din xadimləri ilə videokonfrans formatında görüş keçirib.**

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin və ölkəmizdəki dini konfessiyaların rəhbərlərinin qatıldığı videogörüşdə idarənin paytaxt və bölgələrdəki qazı və səlahiyyətli nümayəndələri də iştirak ediblər.

Şeyxülislam Allahşükür Paşazadə dini mənsubiyyətindən asılı olmayaraq heç bir fərq qoymadan hər bir insanı təhdid edən COVİD-19 bəlası ilə mübarizədə dövlət və din xadimlərinin bir araya gələrək qüvvələrini səfərbər etmələrində fayda olduğunu xatırladıb. QMİ sədri Azərbaycan dövlətinin pandemiyanın yayılmasının qarşısının alınması üçün gördüyü genişmiqyaslı işlərdən bəhs edib. Azərbaycan Prezidentinin ölkə daxilində həyata keçirdiyi ardıcıl tədbirlərin əhəmiyyətindən danışan A.Paşazadə, həmçinin dövlətimizin 30-dan çox ölkəyə humanitar yardım göstərməsini, dövlət rəhbərimizin beynəlxalq əməkdaşlığın təşəbbüskarı olaraq qlobal nümunələr nümayiş etdirdiyini təqdirlə vurğulayıb. Dövlət başçısının BMT-nin Baş Assambleyasının pandemiyanın qarşısının alınması məqsədilə xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etməsinin bəşəri təhlükə ilə mübarizədə qlobal həmrəyliyin təmininə xidmət edən beynəlxalq əməkdaşlıq nümunəsi olduğunu bildirən QMİ sədri bunu olduqca əhəmiyyətli, dəyərli addım kimi qiymətləndirib.

A.Paşazadə Nazirlər Kabineti yanında təsis edilən Operativ Qərargahın fəaliyyətini təqdir edərək QMİ-nin bu qurumla fəal əməkdaşlıq etdiyini, dini səciyyəli məsələlərə dair tövsiyə və qərarları birgə müzakirə etdiklərini diqqətə çatdırıb. Şeyxülislam Allahşükür Paşazadə QMİ-nin geniş beynəlxalq əlaqələrinin pandemiya dövründə də davam etdirildiyini söyləyib.

Amansız xəstəlik dövründə mücadilənin ön cəbhəsində mübarizə aparan həkimlərin, polislərin zəhmətini yüksək dəyərləndirən QMİ sədri din xadimlərimizin də bu istiqamətdə fədakar xidmətini xüsusi qeyd edib. O bildirib ki, din xadimlərinin mənəvi dəstəyi, müqəddəs dinimizin aşıladığı yüksək dəyərləri insanlara təlqin etməsi, ən çətin anlarında insanların yanında olması, xəstəlik riskini göz önünə alaraq dini vacibatları yerinə yetirməsi minnətdarlıqla qarşılanır. Buna görə din xadimlərinə təşəkkürünü bildirən QMİ sədri koronavirus səbəbindən dünyasını dəyişənlərə Allahdan rəhmət diləyib, onların əzizlərinə başsağlığı verib, xəstələrə şəfa diləyib.

Pandemiyanın gedişatından, yaratdığı reallıqlardan, fəsadlardan ətraflı bəhs edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu bəlanın dəf olunması üçün zəruri olan məqamları din xadimləri ilə bölüşüb. QMİ-də pandemiyanın başlanğıc dövründə keçirilmiş toplantıda bütün zəruri tövsiyələrin açıqlandığını bildirən M.Qurbanlı bunun öz müsbət nəticəsini verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyevin 2020-ci il 19 mart tarixli fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, martın 28-də Bakıda müasir standartlara cavab verən "Yeni klinika" tibb müəssisəsinin istifadəyə verilməsi, modul tipli xəstəxanaların tikilməsi infeksiya ilə mübarizədə böyük əhəmiyyət daşıyır. Eyni zamanda, Heydər Əliyev Fondunun göstərdiyi fəallıq da mütləq qeyd olunmalıdır. Fond pandemiyaya qarşı mübarizəyə dəstək verərək böyük sosial layihə həyata keçirdi. "Biz birlikdə güclüyük!" aksiyası çərçivəsində aztəminatlı və digər həssas təbəqədən olan 100 mindən çox ailəyə yardım paylanıldı. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın koronavirus pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkənlər üçün qan ehtiyatının yaradılmasına dəstək çağırışı ilə əlaqədar olaraq bütün ölkə ərazisində qanvermə aksiyaları təşkil olundu.

Hər hansı bir ölkənin təkbaşına COVID-19-la mübarizəsinin qeyri-mümkünlüyünü vurğulayan komitə sədri dövlətimizin qlobal müstəvidə bütün dünya dövlətlərinin səylərinin birləşdirilməsi yönündə atdığı addımları, xüsusən BMT-nin Baş Assambleyasının pandemiyanın qarşısının alınması məramı ilə xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü nəzərə çatdırdı.

Dövlət tərəfindən bütün lazımi addımların atıldığını vurğulayan M.Qurbanlı din xadimlərinin bu işə dəstək göstərmələrini qeyd edərək virusun çox təhlükəli olduğunu və bundan qorunma tədbirlərini təbliğ edən moizə və çıxışlarının böyük önəm kəsb etdiyini xüsusi vurğulayıb. Bu əsnada, din xadimlərimizin müxtəlif internet platformalarında, sosial şəbəkələrdə yayımlanan moizələrini dinləyərkən onların səviyyəsindən razı qaldığını dilə gətirən komitə sədri məscidlərin vəfat etmiş insanlar qarşısında dini-mənəvi borclarını yerinə yetirmələrini yüksək dəyərləndirib.

Videogörüşdə çıxış edən dini konfessiya rəhbərləri - Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr, Dağ yəhudiləri icmasının başçısı Melix Yevdayev, Katolik icmasının rəhbəri Yepiskop Vladimir Fekete və Alban-udi icmasının başçısı Robert Mobili din xadimləri olaraq dünyanın tezliklə virus təhlükəsindən qurtulmağı, bəşərin xilası və Azərbaycan hökumətinin bu istiqamətdə gördüyü işlərin uğuru üçün dualar ediblər. Bildiriblər ki, xəstəliklə mübarizə üçün dinindən asılı olmayaraq cəmiyyətin bütün zümrələri səfərbər olmalı, lazımi davranış qaydalarına əməl etməli, dövlətimizə dəstək olmalıdırlar.

QMİ sədrinin birinci müavini Salman Musayev pandemiya dövründə məscidlərin kütləvi ibadətlərə bağlı olması şəraitində din xadimlərinin ehtiyacı olan insanlara, yaşlılara, əlillərə yardımlar təşkil etdiyini, dəfn mərasimlərinin dinimizin qaydalarına uyğun keçirilməsini təmin etmələrini, yayımlanan moizələri ilə insanlara mənəvi dayaq olmalarını diqqətə çatdırıb. Müfti məscidlərin bağlı qalması səbəbindən televiziya kanallarında din xadimlərinin insanların mənəvi ehtiyac duyduğu çıxışlarına imkan və şərait yaradılması məsələsinə dövlət komitəsinin yardımçı olmasını zəruri hesab etdiyini qeyd edib.

QMİ sədri Şeyxülislam Allahşükür Paşazadənin moderatorluğu ilə davam edən videoiclasda Naxçıvan Muxtar Respublikası üzrə qazı Sahib Məmmədov, Xəzər rayonu üzrə qazı Soltan Əlizadə, Cəbrayıl rayon Cocuq Mərcanlı kənd məscidinin imamı Elman Piriyev, Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndə Şahin Həsənli, Quba bölgəsi üzrə qazı Naib Səttarov, Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndə Tahir Abbasov, cənub bölgəsi üzrə qazı Qəni Axundzadə, Balakən rayonu üzrə qazı İbrahim İbrahimov, Təzəpir məscidinin imamı Mircəfər Əyyubov, Sumqayıt şəhəri üzrə qazı Rauf Sərdarov, Qəbələ bölgəsi üzrə qazı Ceyhun Rüstəmov, Şamaxı rayonu üzrə səlahiyyətli nümayəndə Mirəhməd Mustafayev, İçərişəhər üzrə səlahiyyətli nümayəndə Surxay Məmmədov, Qazax bölgəsi üzrə qazı İlham Süleymanov, İmişli rayonu üzrə səlahiyyətli nümayəndə Adığözəl Bəşirov çıxış ediblər.

Çıxışlarda din xadimləri öz fəaliyyətlərini QMİ-nin tövsiyələrinə və direktivlərinə uyğun olaraq həyata keçirdiklərini və dövlətimizin pandemiyanın qarşısının alınmasına yönəlik addımlarını dəstəklədiklərini bildiriblər. Din xadimləri Uca Allahın köməyi və dövlətimizin gördüyü tədbirlər sayəsində tezliklə virus təhlükəsinin sovuşacağına ümidvar olduqlarını söyləyiblər.

Görüşdə təkliflərini səsləndirən din xadimləri onları ən çox narahat edən məqamlar sırasında sosial şəbəkələrdə dövlət və din xadimlərinin ünvanına yönəlik təhqir və qarayaxma kampaniyaları olduğunu birmənalı şəkildə vurğulayıblar. Din xadimləri xarici xüsusi xidmət orqanları tərəfindən yönləndirilən simasız şəxslərin belə üzdəniraq, haqsız çıxışlarının dindar insanların heysiyyətinə toxunduğunu və bu abırsız şəxslərin öz əməllərinə görə qanun qarşısında cəzalandırılmasını tələb etdiklərini diqqətə çatdırıblar.

Videogörüşün sonunda QMİ sədri din xadimlərinin bütün təkliflərinin nəzərdən keçiriləcəyini vurğulayıb.

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**GPON (Giqabit imkanlı passiv optik şəbəkə) texnologiyasının tətbiqi ilə mənzillərin telefonlaşdırılması, LTE (Simsiz Telefon Rabitəsi) tətbiqi ilə baza stansiyalarının quraşdırılması və şəbəkənin genişləndirilməsi məqsədilə iş və xidmətlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**2000 (iki min) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **27 iyul 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **06 avqust 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **07 avqust 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC iştirakçısı olduğu bir sıra müəssisələrdə paylarının bazar dəyərinin müəyyən olunmasına dair beynəlxalq standartlara və qabaqcıl təcrübəyə uyğun qiymətləndirmə xidmətinin təkliflər sorğusu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan şirkətlər (+994 12) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 09.07.2020-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

17 aprel 2020-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin dərman sarğı ləvazimatları və materialların satın alınması üçün keçirdiyi açıq tenderdə "Solamedical" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 18.02.2020-ci il tarixli sayında dərc edilmiş "Kompüter avadanlıqlarının satın alınması" prosedurunun qalibi "Bakinity" MMC müəyyən edilmişdir.

"Azərpoçt" MMC və "Bakinity" MMC arasında 01.07.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin satın alınması üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir:

Tender proseduru 06 avqust 2020-ci il tarixdə saat 12:00-da Dövlət satınalmalarının vahid internet Portalında **(https://etender.gov.az/)** (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün "ASAN ödəniş" sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 150 ( bir yüz əlli) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 17 sentyabr 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **06 avqust 2020-ci il saat 11:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **24 iyul 2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: Müqavilə qüvvəyə mindikdən sonra.

Xidmətin göstərilməsi, işlərin görülməsi və malların təqdim edilməsi müddəti: dövri olaraq 1 il müddətində.

Qiymətləndirmə meyarları:

- qiymət və texniki amillər (iş təcrübəsi, əməkdaşların peşəkarlığı və maddi-texniki baza).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2020-ci il üçün xərclər smetasında "maşın və avadanlıqlar" (311150) xərc maddəsinə ayrılmış vəsaitlər hesabına
## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.07.2020-ci il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

Əlaqələndirici şəxs: Anar Məmmədov.

**Ünvan: Bakı şəhəri, S.Əsgərova küçəsi, 85**
**Telefon: (012) 596-47-01**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 22.05.2020-ci il tarixdə "Ağdam rayonu, Əfətli, Küdürlü, Hacıməmmədli, İsalar, Hacıturalı, Qəhrəmanbəyli, Həsənxanlı, Məmmədbağırlı kəndləri ərazisində 10 kV-luq hava xəttinin, 25/63/100/160/250/400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması" məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı 3 (üç)dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsini əsas götürərək Tender komissiyasının qərarına əsasən tenderin davamından imtina olunmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə "Şəmkir rayonu Bayramlı kəndi ərazisində 10 kV-luq hava xəttinin, 160/250 kVA gücündə mövcud KTM-lərin kabel xəttinin çəkilməsi, 400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması" məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı 3 (üç)dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsini əsas götürərək Tender komissiyasının qərarına əsasən tenderin davamından imtina olunmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən e-tender.gov.az saytında 17.03.2020-ci il tarixdə elan edilmiş "Təmizlik xidməti işlərinin" kotirovka prosedurunun qalibi "Real Cleaning" MMC müəyyən edilmişdir.

"Azərpoçt" MMC və "Real Cleaning" MMC arasında 26.06.2020-ci il tarixdə kotirovka müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya Publik Hüquqi şəxsikresloların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar +994505151512telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 08.07.2020 16:30 tarixinədək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli ObservatoriyaPublik Hüquqi şəxsi mebel və digər inventarların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar +994502224409 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 08.07.2020 16:00 tarixinədək qəbul olunur.

***Tender komissiyası***

# Lənkəran Dövlət Universiteti
## *açıq tender elan edir*

LOT-1. Cari təmir işləri

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə cari təmir işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq öz tender təkliflərini **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı LOT-1 üzrə 300 (üç yüz) manat**

**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 iyul 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **04 avqust 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **05 avqust 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# "Bakı Metropoliteni" QSU üçün müxtəlif növ yastıq və yastıq məmulatlarının satın alınması üzrə
## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**LOT-1. Müxtəlif növ yastıq və yastıq məmulatlarının satın alınması**
**iştirak haqqı- 300 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSU**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASU (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
2. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 % -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **"23" iyul 2020-ci il saat 15.00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **"04" avqust 2020-ci il saat 1500-a qədər** PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri **"05" avqust 2020-ci il saat 15.00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***TENDER KOMİSSİYASI***

# İŞ ELANI

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsi üzrə**

**Vəzifə:** Biznes Təlimçi

**Layihə/İdarə:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Məşğulluğa Dəstək Layihəsi

**Təyinat üzrə Texniki Tapşırıq**

**https://drive.google.com/file/d/1UBAb62mGP1L4-uqjcX3ETYdWBc889Qc_S/view?usp=sharing**

**Layihə İcra Qrupu:**

LİQ Dünya Bankının fidusiar və hesabatvermə tələblərinə uyğun olaraq, satınalmalar, maliyyə idarəetməsi, sosial və ətraf mühitlə bağlı tələblər, eləcə də üç komponentin monitorinqi və onların icrası ilə bağlı mütəmadi hesabatvermə üçün məsul olacaq.

**Vəzifə və tapşırıqlar:**

- Benefisiarlara sahibkarlıq və biznes planının hazırlanması ilə bağlı təlimlər keçmək;
- Hər təlimçi 1-4 təlim qruplarına, 10 gün ərzində/gündə 4 saat olmaqla təlimlər keçəcək. Təlimlər bu tapşırığın əlavəsində qeyd edilən rayon və şəhərlərdə keçiriləcəkdir. Təxminən 2.200 benefisiara 27 rayon və şəhərlərdə təlimlər keçiriləcək və hər təlimçi 9 benefisiara təlim keçəcəkdir. (COVID 19 pandemiyası ilə bağlı vəziyyəti nəzərə alaraq təlimlərdə ümumilikdə 10 nəfərin (9 benefisiar + 1 təlimçi) iştirak edilməsinə icazə verilir);
- Praktik məşğələlər zamanı benefisiarlara tam dəstək vermək: ev tapşırığı və məşğələlər zamanı tövsiyələr vermək, düzəlişlər etmək və izah etmək;
- Benefisiarlar tərəfindən müxtəlif biznes ideyaların formalaşdırılması üçün mümkün biznes imkanları haqqında məlumat mübadiləsi, həssas qruplardan olan digər uğurlu sahibkarların nümunələrindən istifadə edilməsi;
- Hazırlanmış meyarlara əsasən, növbədə biznes planların ilkin qiymətləndirilməsinin aparılması və qrantların maliyyələşdirilməsi üçün ən yaxşı hesab olunan biznes planlarını nəzərdən keçirmək üçün Qiymətləndirmə Komitəsinə tövsiyələrin verilməsi. Bu işlərin hər təlim kursunun sonunda ediləcəyi gözlənilir, lakin LİQ tərəfindən razılaşdırıldığı təqdirdə daha rahat tərzdə edilməsi üçün birləşdirilə bilər;
- COVID 19 pandemiyası ilə əlaqədar vəziyyəti nəzərə alaraq mümkün təlimlərin onlayn rejimində təşkil edilməsinə hazır olmaq;
- Biznes təlimləri zamanı əldə olunan biliklərin "iş yerində" tətbiq olunmasını təmin etmək üçün təlimdən sonrakı səfərlərin (follow up) təşkil edilməsi (təlimçi biznes fəaliyyətlərinin ilk dörd ayı ərzində hər qrup iştirakçısına baş çəkməlidir - ayda bir, hər səfərin biri təxminən 4 saat).

Təlimdən sonrakı səfərlərin məqsədləri aşağıdakılardır:

- Benefisiarların bacarıqlarının artırılması və onların təlim bacarıqlarının iş şəraitinə uyğun keçirilməsinə kömək etmək;
- Verilmiş aktivlərin idarə edilməsində benefisiarların qarşılaşdığı problemləri müəyyənləşdirmək və bu problemlərin həllinə kömək etmək;
- Biznes planının həyata keçirilməsini yaxşılaşdırmaq üçün benefisiarların fəaliyyəti və fəaliyyətə təsir edən şərtlər haqqında məlumat toplamaq.

**Biznes Təlimçi vəzifəsinə uyğun namizəd olmaq üçün minimum tələblər:**

- Azərbaycan vətəndaşı, Azərbaycan dilndə sərbəst yazmaq və ünsiyyət qurma bacarığı, ingilis dilini bilməsi üstünlük hesab ediləcək;
- Ali təhsilli, BƏT-in hazırkı "Öz biznesini yarat və təkmilləşdir" (ÖBYT) tədris modulu üzrə sertifikatın olması və müvafiq təlimlərin aparılmasında təcrübə;
- Müvafiq sahədə təlimlərin keçirilməsində ən azı 3 il iş təcrübəsi;
- Sahibkarlara işgüzar məsləhət vermək təcrübəsi və ya özünün sahibkarlıq təcrübəsi üstünlük hesab olunur;
- Təlim və ya biznes qurumlarında üzvlük üstünlük hesab olunur;
- Təşkilati idarəetmə və ya liderlik sahəsindəki təcrübə üstünlük hesab olunur. Əla, mükəmməl anlaşma, təlim, tədqiqat və analitik bacarıqlar tələb olunur;
- Koordinasiya, hesabat hazırlamaq və zəruri məlumatların verilməsi bacarığı tələb olunur;
- Vaxtdan lazımi istifadə etmə, təşkilatçılıq bacarığı və şəxsi keyfiyyətlərin olması;
- Güclü ünsiyyət və təqdimat bacarıqları.

**Namizədlər tərcümeyi-hallarını aşağıdakı ünvana göndərməlidirlər:**
**E-mail: asep.huseyn@gmail.com**
Müraciət üçün son tarix: 27 iyul, 2020

**Qeyd:**
* Göndərilən elektron məktubun başlığında Layihə və iş elanının adı qeyd edilməlidir.
* Ancaq seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.

# VACANCY ANNOUNCEMENT

**Ministry of Labor and Social Protection of Population toward the cost of the Employment Support Project**

**Position/Title:** Trainer (Business)

**Project/Office:** Employment Support Project (ESP) under the Ministry of Labor and Social Protection of Population

**The detailed Terms of Reference (TOR) for the assignment**
**https://drive.google.com/file/d/1bpoAXt7Nk6JFTG2vurnJCfMWwtPRS8uW/view?usp=sharing**

**Project Implementation Unit:**

The PIU will be responsible for the procurement, financial management, social and environmental requirements, as well as monitoring and regularly reporting on the implementation of the three components, in compliance with World Bank fiduciary and reporting requirements.

**Responsibilities and tasks:**

**The followings are the responsibilities of Trainer (Business):**

In the scope of this project, PIU will contract services of trainers, who will work under the direct supervision of PIU Coordinator. The trainer shall coordinate activities with the relevant PIU specialists. The training programme in this project will be the current 40 hours class-based ILO's "Start and Improve Your Business" (SIYB) training module.

- The Trainer performs the following tasks:
- Deliver trainings on entrepreneurship and business plan development to beneficiaries. Each trainer is expected to deliver 1-4 training sessions, 10 days each / 4-hours a day. The trainings are conducted in the regions listed in the Background section of this ToR.
- Approximately 2.200 beneficiaries will be trained in 27 regions and 9 persons will be trained per each trainer. (Taking into consideration situation with the Covid 19 it was decided that 10 persons in total can participate in trainings (9 beneficiaries + 1 trainer).
- Provide full support and coaching during the practical exercises: gives guidance and feedback on the homework and performed exercises, corrects and explains.
- Encourage business idea generation by beneficiaries through actively sharing information on various possible business opportunities, as well as through using examples of other successful entrepreneurs from vulnerable groups.
- Based on developed criteria, perform first instance evaluation of the business plans and presents to Evaluation Committee for review those considered to be best eligible for grant financing. This is expected to be done at the end of each training course, but can be combined for logistic convenience if agreed by PIU.
- Organize possible training sessions online taking into account the situation with Coronavirus Disease 2019.
- Participate in follow up visits to ensure the knowledge acquired at the business training is applied "on-the-job" (trainer shall visit each group participant during the first four months of business operations - one per month, approx. 4 hours each)).

The objectives of follow-up after training are to:

- Reinforce skills and help end beneficiaries to transfer business training skills to work conditions;
- Identify problems faced by end beneficiaries in managing provided assets and help solve these problems;
- and
- Gather information on the performance of end beneficiaries and the conditions that influence performance, in order to improve the implementation of business plan.

**Minimum requirements to become an eligible candidate for the position of Trainer (Business):**

- Resident of Azerbaijan, fluency in written and spoken Azerbaijani language is mandatory, English will be an asset;
- University degree and certificate in conducting of research and training based on the last ILO's "Start and Improve Your Business" (SIYB) training module;
- At least 3 years of experience in delivery of trainings in the required field;
- Working experience in regions will be an asset;
- Experience in provision of business consultancy to entrepreneurs or own entrepreneurship experience will be an asset;
- Membership in a training or business association will be an asset,
- Experience with organizational development or leadership training will be considered an asset. Excellent facilitation, training, research and analytical skills are required;
- Excellent skills in coordination, reporting and extracting necessary and relevant information are a must;
- Outstanding time-management, organizational and interpersonal skills;
- Strong communication and presentation skills.

**Applicants should send CV to the following email address:**
**E-mail: asep.huseyn@gmail.com**
**Application deadline:** July 27, 2020
**Note:**
* Please mention the Project and name of vacancy in the mail subject
* Only short-listed candidates will be contacted

# BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə "**Qazax rayonu Kəmərli kəndi ərazisində 10 kV-luq hava xəttinin, 160/250/400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması**" məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsini əsas götürərək Tender komissiyasının qərarına əsasən tenderin davamından imtina olunmuşdur.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə **"Goranboy rayonu Buzluq kəndi ərazisində 10 kV-luq hava xəttinin, 100/250 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsini əsas götürərək Tender komissiyasının qərarına əsasən tenderin davamından imtina olunmuşdur.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə **"Gədəbəy rayonu Əyrivəng və Qasımlı kəndləri ərazisində 10 kV-luq hava xəttinin, 63/250 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsini əsas götürərək Tender komissiyasının qərarına əsasən tenderin davamından imtina olunmuşdur.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin İşlər İdarəsinin kollektivi iş yoldaşları Günel Mürvəlodovaya atası

**AYDIN MÜRVƏLƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Mərkəzi Seçki Komissiyasının katibi Mikayıl Rəhimova bacısı

**GÖYÇƏK NOVRUZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi Diferensial tənliklər və optimallaşdırma kafedrasının dosenti, Əməkdar müəllim

**ƏKBƏR COMƏRD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5847
Sifariş 1619
Qiyməti 40 qəpik